Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

10 İYUL 2019-cu il

№ 120 (4018)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# TRAMPIN DOLLAR PLANI DÜNYANI HƏRƏKƏTƏ GƏTİRDİ, AZƏRBAYCANA DA ÇAĞIRIŞLAR VAR...

■ səh. 6 ■



■ səh. 3 ■

## Avropa İttifaqı Şurasının prezidenti Bakıda Azərbaycanın ərazi bütövlüyünə açıq, birmənalı və qəti dəstək verdi

*Prezident Əliyev Avroittifaq prezidenti ilə təkbətək görüşdə Dağlıq Qarabağ probleminin həlli yollarından danışdı*



**Bəzi hüquq müdafiəçiləri milyonlar mənimsəmiş Cahangir Hacıyevi də siyasi məhbusa çevirmək istəyir**

■ səh. 4 ■

**Lüt-üryan Ermənistanın Cənub-Şərqi Asiyanın «kiçik iqtisadi əjdahalarına» qoşulmaq xülyaları...**

■ səh. 7 ■



**Qaçaqmal linzalar Bakı klinikalarında «at oynadır»...**

■ səh. 13 ■

Türkiyə üçün nəzərdə tutulan "S-400"lərin Bakıda yerləşdirilməsi yenidən gündəmdə... ■ səh. 5 ■

Ermənilər Qarabağı döyüşsüz təslim etmək zorunda... ■ səh. 9 ■

"Daşnaksütyun" qondarma "DQR"də hakimiyyətə gəlsə... Qarabağ danışıqlarında yeni şərait... ■ səh. 7 ■

Türkiyə-Rusiya cütlüyünə qarşı Aralıq dənizində Qərbin "qaz savaşı" qızışır ■ səh. 8 ■

Azərbaycanın yaratdığı enerji və nəqliyyat-logistika layihələri Avropa Birliyinin Türkmənistana da yolunu açdı ■ səh. 5 ■

Restoranlar səs tonu və menyu sərbəstliyi normalarına qəti uyğunlaşmaq istəmir... ■ səh. 15 ■

Bakı metrosunda sərnişinlərin kitab oxumaq adəti qayıdır ■ səh. 14 ■

"Bizim süfrə" nədir, "Bizim sufre" nədir - saxta ketçup? ■ səh. 14 ■

■ səh. 10 ■

**Ermənilər İrəvandakı "Göy məscidi" də UNESCO siyahısında öz adlarına çıxmaq istəyir**



■ səh. 2 ■

**Əhali üçün işıq limitinin artırılması ictimai rəyə çevrilir...**



■ səh. 13 ■

**Hacı Əbdül jurnalistlərlə yeni layihə ilə sükutu pozur - hədiyyəlik avtomobillər "tövbə müqabilində"...**



■ səh. 11 ■

**Pensiya və əməkhaqları artmamış meyvə-tərəvəz dəllalları işə düşdülər...**



■ səh. 11 ■

**Şəkinin yeni beynəlxalq statusu şəhərə turist axını açacaq...**



## Prezident İlham Əliyev Azərbaycan dövlətinin heç vaxt indiki kimi güclü olmadığını dedi...

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına təbrik ünvanlayıb.**

"Trend"in məlumatına görə, təbrikdə deyilir:

"Hörmətli müşavirə iştirakçıları!

Sizi salamlayır və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Şərqdə, müsəlman dünyasında ilk parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal Bəyannaməsində təsbit olunduğu kimi, bütün millətlərlə dost münasibətlər yaratmaq Cümhuriyyətin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi.

Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük işlər görə bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın 1919-cu ildə qəbul edildiyi tarix - iyulun 9-u Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Bu gün həmin tarixdən düz 100 il keçir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin üzləşdiyi çətinliklərlə qarşılaşmışdı. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və torpaqlarımızın işğalı, mürəkkəb siyasi proseslər, sosial-iqtisadi problemlər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının taleyini sual altına qoymuşdu.

1993-cü ilin iyununda xalqın israrlı tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi oldu. Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən qurtararaq inkişaf yoluna çıxardı, ölkəmiz bütün sahələrdə inamla irəliyə doğru addımlamağa başladı və xarici siyasət strategiyamızın təməl prinsipləri müəyyən olundu. Ötən dövr ərzində biz güclü, qüdrətli dövlət qura bildik və bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövləti heç vaxt indiki kimi güclü olmamışdır.

Bu gün Azərbaycan, sözün əsl mənasında müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar.

Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Xarici İşlər Nazirliyinin, səfirliklərimizin və nümayəndəliklərimizin əməkdaşlarına, xarici siyasət sahəsində çalışan bütün şəxslərə bir daha ən səmimi təbriklərimi yetirir, Azərbaycanın milli maraqlarının qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli işdə uğurlar arzulayıram".

## İrəvan meriyasının qarşısına zibil paketləri atdılar

**İrəvanda sakinlər şəhər meriyası qarşısında etiraz aksiyası keçirib. "Trend"in erməni KİV-inə istinadən məlumatına görə, etirazçılar meriya binasının qarşısına zibil paketləri atıblar.**

Qeyd olunur ki, etirazçılar küçələrdən zibilin yığışdırılmadığını bildiriblər. Aksiya iştirakçıları arasında saxlananlar var.

Son dövrlərdə şəhərdə zibilin toplanması ilə məşğul olan "Sanitek" şirkətinin işinin öhdəsindən gələ bilmədiyi deyilir.

İrəvan meriyası şirkəti bir neçə dəfə cərimələdiyini bildirib. Şirkət isə şəhərdə yolların pis vəziyyətdə olması ilə əlaqədar zibil maşınlarının tez sıradan çıxdığını deyib.

# Elmar Məmmədyarova görə, diplomatiyamızın ən başlıca vəzifəsi...

**Torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması diplomatiyamızın ən başlıca vəzifəsidir.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsində deyib.

Nazir bildirib ki, beynəlxalq ictimaiyyət birmənalı şəkildə Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində onun suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir:

"Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması və münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunması BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyasının məlum qətnamələri ilə yanaşı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərarlarında da öz əksini tapır. Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması, torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması diplomatiyamızın ən başlıca vəzifəsidir".



# Əhali üçün işıq limitinin artırılması ictimai rəyə çevrilir...

## *Əli Əlirzayev: "Elektrik enerjisi ilə bağlı limitə yenidən baxılmalı və bu ləğv edilməlidir"*

**İki ay əvvəl dövlət başçısının qərarı ilə təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak limiti 1700 kubmetrdən 2200 kubmetrə qaldırıldı. Əhalinin qış aylarında təbii qaza tələbatının yüksək olması və bu səbəbdən illik limitin keçilməsi ilə bağlı kommunal xərclərinin artmasını nəzərə alan hökumət bu addımı atdı.**

Ölkədə təbii qazın istifadəsinə tətbiq olunan limitin artırılmasından sonra elektrik enerjisi ilə bağlı limitin artırılması məsələsi ictimai rəydə özünü göstərməyə başlayır. Hazırda yay fəslinin anormal istilərində insanların evdə və iş yerlərində kondisionerləri işə salması elektrik xərclərini hiss olunacaq dərəcədə artırıb. Bir çoxları isə aylıq elektrik xərclərini ödəməkdə çətinlik çəkdiyindən, evdə, ofisdə kondisioner yandırmaqdan imtina edir. Ona görə də ictimai rəydə qazla bağlı qərarın işıq barədə də verilməsi yönündə istəklər artır. Bunun zəruri olması ilə bağlı fikirlər var. Hesab olunur ki, bu həm əhalinin həyat şəraitinə, həm də büdcəsinə müsbət təsir edəcək. Son vaxtlar ictimaiyyət arasında bununla bağlı müraciətlər artır.

Məlumat üçün qeyd edək ki, hazırda əhali qrupu üzrə aylıq elektrik enerjisi istehlakı 300 kilovat-saatadək olan istehlakçılar üçün tarif 7 qəpik, aylıq istehlak həcminin 300 kilovat-saatdan çox olan hissəsi üçün isə 11 qəpik müəyyənləşdirilib.

Maraqlıdır, ekspertlər işıq limitinin artırılması ilə bağlı yaranan ictimai rəyi necə dəyərləndirirlər?



*"Limit üzündən eləsi var ki, kondisionerdən istifadə etmir"*

Bütövlükdə, elektrik enerjisi ilə bağlı limitin artırılmasına necə yanaşırlar?

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, işıqla bağlı nəinki limit artırılmalı, ümumiyyətlə ləğv edilməlidir: "Ümumiyyətlə, limitin əleyhinəyəm. Sayğac nə qədər yazırsa, onun müqabilində istehlakçı pul ödəməlidir. Yay ayında elektrik enerjisinə tələbat artır. Rayonlarda bəzən əhali elektrik enerjisini yanacağın yerində istifadə edir. Limitdən sonra bununla bağlı xərclər daha da artır. Rayon əhalisinin isə gəlirləri şəhərlə müqayisədə aşağıdır. Limit üzündən eləsi var ki, kondisionerdən istifadə etmir. Ona görə ki, işıq limiti həmin ailələrin büdcəsinə ciddi təsir edir. Başqa bir tərəfdən, Azərbaycan elektrik enerjisini ixrac edən ölkədir. Belə olan halda, ümumiyyətlə, bu sahədə limitin tətbiq edilməsinə ehtiyac yoxdur. Hesab edirəm ki, qiymət eyni olmalıdır. Azərbaycan elektirik enerjisinə olan tələbatı idxal hesabına təmin etsəydi, bunu hardasa başa düşmək olardı. Ancaq Azərbaycan elektrik enerjisinə olan tələbatı daxili istehsal hesabına təmin etdiyindən, limitə ehtiyac yoxdur. Azərbaycan enerji məhsulları ixrac edən ölkədir. Mən əvvəldən istər təbii qazla, istərsə də işıqla bağlı limitin tətbiq olunmasının əleyhinə olmuşam. Əmtəənin, malın bir qiyməti olar. Ona görə də elektrik enerjisi ilə bağlı limitə yenidən baxılmalı və bu ləğv edilməlidir. Yəni limit məhdudiyyəti ortadan götürülməlidir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda nehrə yağı adı altında saxta yağlar satılır...

**Təəssüflə qeyd edirəm ki, Azərbaycanın müxtəlif regionlarında nehrə yağı adı altında satılan yağlar saxtadır.**

"Trend"in məlumatına görə, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli bildirib.

Agentlik sədrinin sözlərinə görə, transyağların nehrə yağı adı altında satılması cinayət faktıdır: "Cənub bölgəsində 6 süd məhsulu istehsalı müəssisəsindən götürülmüş nehrə yağı adı altında istehsal olunan həmin məhsulların ekspertiza nəticəsi məlum olub. Onların tərkibində insan orqanizminə zərərli olan yağ nümunələri aşkarlanıb. Təəssüflə qeyd edib ki, tərkibində transyağ aşkarlanan 12 adda yağın 80 faizindən çoxu ölkəyə idxal olunub".

Q.Təhməzli əlavə edib ki, yağların tərkibində transyağların miqdarı 2 faizdən çox olduqda onun idxalı qadağan olunacaq.

# Avropa İttifaqı Şurasının prezidenti Bakıda Azərbaycanın ərazi bütövlüyünə açıq, birmənalı və qəti dəstək verdi

## *Prezident Əliyev Avroittifaq prezidenti ilə təkbətək görüşdə Dağlıq Qarabağ probleminin həlli yollarından danışdı*

**İyulun 9-da Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla təkbətək görüşü olub. Daha sonra tərəflər geniş tərkibdə görüşüblər. Təkbətək görüşdə Prezident İlham Əliyevin deyib ki, "əminəm, səfər çox uğurlu olacaq. Əlbəttə ki, biz gündəliyimizdə duran məsələləri müzakirə edəcəyik və Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığı planlaşdıracağıq. Əminəm ki, qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir.**



Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram".

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk isə deyib:"Bu, yəqin ki, mənim Avropa İttifaqı Şurasının prezidenti qismində Bakıya son səfərimdir. Mənim niyyətim Avropada bizim hamımız üçün Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır.

Əlaqələrimizə gəldikdə, Sizin şəxsi rolunuzun, şəxsi iştirakınızın nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm. Mən Sizin səylərinizi həqiqətən qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir. Bir daha təşəkkür edirəm, cənab Prezident!

Təkbətək görüş başa çatdıqdan sonra Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

Daha sonra Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatında deyib:

- Cənab Prezidentin bugünkü səfəri bir daha onu nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası var.

Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur. Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz sözsüz ki, artacaq.

Mən bu əlaqələrin inkişafına verdiyi şəxsi töhfəyə görə xüsusilə Prezident Tuska minnətdarlığımı bildirmək istərdim. O, Azərbaycandakı vəziyyətə yaxşı bələddir. Onun bizim yaxınlaşmağımızda rolu çox mühümdür. Biz də öz tərəfimizdən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün çox işlər görürük.

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk bəyanatında deyib:

- Bakıya qayıtmaq məndə həqiqətən də məmnunluq hissi doğurur. Kağızımda "küləklər şəhəri" yazılıb, mən bilirəm, bu, Bakının ənənəvi adıdır, lakin bu gün şəhər çox sakit görünür.

Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən Cənub Qaz Dəhlizini unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir.

Azərbaycan özünü nəqliyyat və logistika qovşağına çevirmək üçün mühüm addımlar atıb. Mən Azərbaycanın Şərq və Qərblə, eyni zamanda, Şimal və Cənub tərəfdaşları üçün iddialarının təcəssümü olan Bakı limanına səfər etməyi səbirsizliklə gözləyirəm.

Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır.

Regionda sabitliyə istinad edərək biz, həmçinin həll olunmamış Dağlıq-Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin, eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır.

Nəhayət, bu gün günün ikinci yarısında mən Qobustana səfər etmək şərəfinə nail olacağam. Romalı legionerlər tərəfindən qaya üzərində çəkilən təsvirlər Azərbaycanın minilliklər ərzində Avropada necə də mühüm yer tutduğunun sübutudur. Bu zaman dönəmində mən tərəfdaşlığımızı gələcək illərdə inkişaf etdirəcəyimizi səbirsizliklə gözləyirəm".

***Baki-xeber.com***

**Həbsə düşən bəzi şəxsləri pul və digər maraqlar müqabilində "siyasi məhbus"a çevirmək, adlarını bəzi siyahılara salmaq kimi prosesləri çox görmüşük. İndi də bu istiqamətdə fəaliyyət həbsdə olan Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin adı ətrafında aparılır.**

# Bəzi hüquq müdafiəçiləri milyonlar mənimsəmiş Cahangir Hacıyevi də siyasi məhbusa çevirmək istəyir



***Rauf Zeyni:** "Xalqın büdcəsinə əl uzadanı necə siyasi məhbus saymaq olar?"*

***Novella Cəfəroğlu:** "Millətin pullarını talayıb və buna görə həbs olunub"*

Qeyd edək ki, hələ 2016-cı ilin oktyabrında Cahangir Hacıyev və digərlərinin cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində proses keçirilərkən sabiq bankirin "siyasi məhbus" elan oluna biləcəyi haqda xəbərlər dolaşırdı. Onun müdafiəsi ilə bağlı yazılar paylaşılırdı. Nəhayət, 2016-cı il oktyabrın 12-də Cahangir Hacıyevin barəsində 15 il müddətinə azadlıqdan məhrumetmə cəzası verilmişdi. Məhkəmə Cahangir Hacıyevdən 63 milyon 80 min manat tutularaq Beynəlxalq Banka verilməsi, ona məxsus dəyərli qol saatının və sikkə pulların müsadirə olunması barədə hökm çıxardı. C.Hacıyev rəhbərlik etdiyi bankın 400 milyon manatını mənimsəməkdə ittiham edilirdi. Biz praktikada pulu olan, korrupsiya və digər əməllərə görə həbsxanaya düşən adamların necə özlərini "siyasi məhbus"a çevirdiyini görmüşük. Cahangir Hacıyevin həyat yoldaşının Londonda keçirdiyi və bütün dünyanın gözünü qamaşdıran dəbdəbəli yaşam tərzinə baxmaq bəsdir ki, onlar barədə ətraflı təsəvvür yaranmış olsun. Təbii ki, həmin pulların hamısı Cahangir Hacıyev tərəfindən oğurlanaraq Avropaya çıxarılıb. Görəsən belə adamın "siyasi məhbus" elan olunmasında kim və niyə maraqlıdır?

Ədliyyə Nazirliyi yanında İctimai Komitənin üzvü, Milli QHT Forumunun prezidenti Rauf Zeyni qəzetimizə açıqlamasında belə halların yolverilməz olduğunu qeyd etdi: "Cinayət törətmiş şəxs ilk növbədə qanun qarşısında cavab verməlidir. Cahangir Hacıyevin cinayət törətməsinə artıq şübhə yoxdur. Ölkənin ən böyük pul kütləsi olan bankını talayıblar. Onun barəsində bu cinayəti törətməklə bağlı məhkəmə qərarı var. Bu kateqoriyadan olan adamlar müəyyən şirnikləşdirici vədlərin müqabilində özlərini siyasi məhbus kimi qələmə vermək istəyirlər. Bu yolla da adlarını beynəlxalq qurumların siyahısına saldırıb, sonra bundan ölkəmizə qarşı təzyiq metodu kimi istifadə edirlər. Xalqın büdcəsinə əl uzadanı necə siyasi məhbus saymaq olar? Buna cəhd edən hüquq müdafiəçiləri də insaflı yanaşma ortaya qoymalıdırlar. Pula görə hər şeyə getmək olmaz. Cahangir Hacıyev nə vaxt siyasi fəaliyyətlə məşğul oldu ki, ona belə ad qoymaq istəyirlər? Azərbaycan dövləti daim humanizmini nümayiş etdirir. Əfv fərmanları və amnistiya aktları verir. Ondan yararlanan çoxlu sayda cinayət törətmiş şəxs var. Cəzaya məhkum edilmiş şəxslər bu humanizmdən yardım gözləməlidirlər. Yoxsa, özlərinin adını siyahıya salıb tez azad olacaqlarına ümid etməsinlər. Bu asan yolları onlara vəd edənlərin maddi marağı olur. Bizim kimi ziyalılar, QHT-lər bu istiqamətdə təbliğat aparıb, bunun yolverilməz olduğunu bildirməlidirlər. Bizim rəsmilər dəfələrlə bəyan ediblər ki, ölkədə heç kimi siyasi əqidəsinə görə həbs etmirlər. "Siyasi məhbus" termini uydurmadır. Cahangir Hacıyev milyonları talasın, indi də əlini-qolunu sallayıb siyasi məhbus kimi azadlığa çıxsın? Bu heç vaxt olan deyil. Belə qaranlıq fəaliyyəti özlərinin qazanc mənbəyinə çevirənlər də yaxşı olar ki, bir qədər düşünsünlər".

Hüquq müdafiəçisi Novella Cəfəroğlu da hesab edir ki, Cahangir Hacıyevin siyasi məhbus hesab olunması mümkün deyil: "Avropa Şurasının kriteriyaları var. Cahangir Hacıyev həmin kriteriyalara uyğun gəlmir. Biz məhkəmələrin monitorinqini aparırıq. Məhkəmələr düzgün getməyəndə bu haqda hesabatlarda yazırıq. Amma siyasi məhbus məsələsini ortaya atmırıq. Beynəlxalq Bankın sədri necə siyasi məhbus ola bilər? Cahangir Hacıyev kimə pul verib ki, adını "siyasi məhbus" yazsın?"

Novella Cəfəroğlu deyir ki, Cahangir Hacıyev bank sədri olub: "İllərlə ölkənin ən böyük bankının sədri olub. Başqa məsələdir ki, onun işi üzrə proses düzgün getmir. Siyasi motiv yoxdur axı. Bankı dağıdıb talan edən insanı necə siyasi məhbus elan etmək olar? Onun məhkəməsi düzgün getmirsə, məhkəmənin monitorinqini keçirmək olar, bu haqda yazmaq olar. Amma siyasi məhbus məsələsində Cahangir Hacıyev kriteriyalara uyğun gəlmir. Millətin pullarını talayıb və buna görə həbs olunub. Onu hansı əsasla siyasi məhbus hesab edə bilərlər? Bu adam sırf yeyinti məsələsinə görə həbsdədir. Onu digərləri ilə qarışdırmaq olmaz".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın Xarici İşlər naziri Zohrab Mnatsakanyanın növbəti dəfə Azərbaycan Respublikasının dövlət sərhədini pozaraq işğal altındakı torpaqlarımıza səfəri zamanı onunla görüşüb məsləhətləşən qondarma separatçı rejimin "xarici işlər naziri" sayılan Masis Mailyan bəyanatla çıxış edib.**

# Qondarma "Qarabağ Respublikası"nın rəhbərliyi Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdü



***Elşən Mustafayev:** "Səslənən iddialar tamamilə absurddur, heç bir hüquq və normalara sığmır"*

Erməni KİV-inin yaydığı məlumata görə, separatçı "nazir" qondarma rejimin danışıqlarda tərəf kimi çıxış etməsi tələbini səsləndirməklə yanaşı, "Artsax"ın ərazi bütövlüyünün bərpasına çalışmaq"dan da danışıb. Söhbət, əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibində Azərbaycanın tarixi və konstutision torpaqları olan keçmiş "Şaumyan" və hazırkı Xocavənd və Tərtər rayonlarının (keçmiş Ağdərə rayonunun bir sıra kəndləri) dövlətimizin nəzarətində olan hissələrindən gedir. Bunlar 1991-ci ildə Çaykənd əməliyyatları zamanı azad edilmiş separatçı rejimin Kəlbəcər rayonunun ərazisini də "daxil edərək" qanunsuz "Şaumyan rayonu" tərkibinə saldıqları hazırda Göygöl və Goranboy rayonlarına daxil edilən Çaykənd, Qarabulaq, Azad, Todan, Meşəli, Buzluq, Ağcakənd, Gülüstan və s. kəndlərdir. Göründüyü kimi, qondarma qurum rəhbərliyi işğaldan əl çəkmək əvəzinə, hətta Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürür. Separatçıların bu addımı nəyə hesablana bilər?

Ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, bununla Ermənistan rəhbərliyi sülhə sadiq olmadıqlarını sübut edir: "Beynəlxalq vasitəçilərin sülhə ümidlə yanaşdıqları, bunun təşviq edildiyi bir zamanda ermənilərin bu azqınlığı başadüşülən deyil. Bilirsiniz ki, qondarma qurum rəsmisi bu bəyanatı özbaşına verə bilməz. Bu, birmənalı şəkildə Ermənistanın siyasi rəhbərliyi ilə razılaşdırılıb. Adıçəkilən ərazilər birbaşa Azərbaycanın ərazi subyektinə aiddir. 1991-ci ildə orda aparılan əməliyyatlar nəticəsində ermənilər könüllü şəkildə oranı tərk edib. Qondarma qurumun özünün məskunlaşdığı ərazi də Azərbaycana aiddirsə, hansı "ərazi bütövlüyü"ndən danışmaq olar? Fikir verirsinizsə, bu detal əvvəl onlar tərəfindən qabardılmayıb. Bununla ermənilər diqqəti əsas mövzudan yayındırmağa çalışırlar. Çünki əsas mövzu ondan ibarətdir ki, onlar işğal etdikləri rayonlardan çıxmalıdır. O rayonlardan ki, heç Dağlıq Qarabağa aidiyyəti yoxdur. Ancaq uzun illərdi ki, onlar bu istiqamətdə bir addım da atmırlar. Azərbaycan kiminsə ərazisinə aid torpaqları zəbt etməyib ki, onları kiməsə qaytara. Münaqişə həllini tapandan sonra ermənilərin Azərbaycan vətəndaşı kimi Dağlıq Qarabağ və ətraf ərazilərdə yaşamasına kimsə etiraz etməyəcək. Bunun üçün onlar konstruktiv olmalı, işğaldan əl çəkməlidirlər. Səslənən iddialar tamamilə absurddu, heç bir hüquq və normalara sığmır. Sadəcə, prosesi uzatmağa hesablanmış gedişatlardı. Qondarma qurum rəsmən tanınmadığı üçün, onların "rəsmilərinin" səsləndirdiyi bəyanatlara ciddi fikir verməyə də lüzum görmürəm".

***Məhəmmədəli QƏRİBLİ***

**Türkiyənin Rusiyadan aldığı "S-400" zenit-raket komplekslərinin ilk hissəsi yaxın günlərdə bu ölkəyə çatdırılacaq. Bu barədə Türkiyə mediası məlumat verib. Qeyd edilir ki, tədarük iki nəqliyyat təyyarəsində həyata keçiriləcək. Sistemin quraşdırılmasına cavabdeh olan doqquz rusiyalıdan ibarət qrup iyulun 8-də Türkiyəyə gələcək.**

*"Ola bilər ki, növbəti divizionlardan biri və ya ikisi müvəqqəti olaraq Azərbaycanda saxlansın"*

# Türkiyə üçün nəzərdə tutulan "S-400"lərin Bakıda yerləşdirilməsi yenidən gündəmdə...

***Üzeyir Cəfərov:** "Bununla bizimlə ABŞ-ın münasibətlərini korlamaq istəyirlər"*

Media Türkiyə Prezidentinin nümayəndəsinə istinadən bildirir ki, Ankara hava hücumundan müdafiə sistemlərini "çox tezliklə, yaxın günlərdə" əldə edəcək. Onun sözlərinə görə, Türkiyə hakimiyyəti hələ də "S-400"ün yerləşdirmə variantlarını öyrənir. Məqsəd bu ZRK-nın alışına görə Türkiyə-ABŞ münasibətlərinin kəskinləşməsindən qaçmaqdır. "Triumf" "S-400" ZRK-nın Azərbaycan və Qətərdə yeləşdirilməsi istisna edilmir.

Xatırladaq ki, Rusiya və Türkiyə 2018-ci ilin sonunda dörd ədəd "S-400" kompleksinin Ankaraya satışı haqqında 2,5 milyard dollar dəyərində saziş imzalayıb. Pentaqon dəfələrlə bəyan edib ki, Türkiyə Rusiya istehsalı olan "S-400" raket komplekslərini alsa, ABŞ istehsalı olan "F-35"ləri ala bilməyəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Rusiyadan alınan "S-400" zenit raket komplekslərinin bu ölkəyə gətiriləcəyini təsdiqləyir. O, Bosniya və Herseqovina səfəri öncəsi jurnalistlərə açıqlamasında bildirib ki, hazırda kompleksərin yükləmə prosesi gedir: "S-400"lər təyyarə ilə ölkəmizə gətiriləcək. Bizim Rusiya tərəfi ilə razılaşdığımız tarixlər var. Lakin bu tarixləri açıqlamağa məni məcbur etməyin. Bu düzgün deyil. Sistemlərin Türkiyənin hansı bölgəsində yerləşdirilməsi ilə bağlı Türkiyə Müdafiə Nazirliyi və Baş Qərargahı plan hazırlayır. Ölkəmiz, bölgəmiz və dünyamız üçün xeyirli olsun".

Xatırladaq ki, iyunun 28-də Birləşmiş Ştatlar Senatı 5-ci nəsil "F-35" qırıcı təyyarələrinin Türkiyəyə tədarükünün qadağan olunmasına dair qərar qəbul edib. Bu barədə Senatın 2020-ci il üçün təsdiqlədiyi müdafiə büdcə layihəsində qeyd olunur. Məlumatda qeyd edilir ki, büdcə layihəsinin 1236-cı bəndində "F-35"lərin Türkiyəyə tədarükünün məhdudlaşdırılması göstərilir.

Bundan əlavə, qanun layihəsində "F-35" təyyarələrinin texniki xidməti ilə bağlı olan avadanlıqların, intellektual mülkiyyət və texniki məlumatların Türkiyə Respublikası ərazisinə ötürülməsi də qadağan edilir. Eyni zamanda, Rusiyadan "S-400" zenit-raket komplekslərinin Türkiyəyə çatdırılmasının yolverilməz olduğu qeyd olunur.

Xatırladaq ki, iyunun 11-də ABŞ-ın Arizona ştatının "Lyuk" hərbi bazasında "F-35" tipli qırıcı-bombardmançılarında təlim keçən türk pilotlar təlimlərdən uzaqlaşdırılıblar. Bu qərar Türkiyənin Rusiyadan "S-400" zenit-raket kompleksləri almasından sonra Vaşinqtonla aparılan danışıqlar fonunda verilib.




"S-400" raketlərinin alışının dəqiqləşməsi yenidən onların Azərbaycanda yerləşdiriləcəyi ilə bağlı mövzunu aktuallaşdırıb. Xüsusilə də erməni KİV-i bu məsələnin üzərində ciddi manipulyasiyalar edir. Həmin raket komplekslərinin Azərbaycanda yerləşdirilməsi mümkündürmü və bunun nə kimi təsirləri ola ilər?

**Hərbi ekspert Üzeyir Cəfərov qəzetimizə açıqlamasında bildirdi ki, bu məsələni bir qədər çox siyasiləşdirirlər:** "Əslinə qalsa, Türkiyə onları müvəqqəti olaraq Azərbaycanda yerləşdirmək barədə düşünür. "S-400" raketləri oktyabr ayında Türkiyə ərazisində tam yerləşdiriləcək. Bununla bağlı Türkiyənin mövqeyi sadə və aydındır. Onlar həmin raketləri heç bir halda Azərbaycanda saxlamaq barədə düşünmürlər. Sadəcə, ABŞ-la olan gərginliyi bir qədər qaydaya salana qədər onları müvəqqəti olaraq ya Azərbaycanda, ya da Qətərdə saxlamaq istəyirlər. Artıq qərar verilib. Bildiyim qədər, həmin raketlər hazır vəziyyətdədir və Ankarada yerləşdirilməsi planlaşdırılır. Bu, birinci diviziondur. Bundan sonra 3 divizion göndəriləcək. Bütövlükdə, Türkiyəyə 4 ədəd "S-400" raketləri veriləcək. Bunun Azərbycana nə istisi, nə də soyuğu yoxdur. Türkiyə tərəfinin əmanət malıdır. Rusiya mütəxəssisləri də artıq Türkiyəyə gəliblər, həmin raketlərin yerləşdirilməsi ilə məşğul olacaqlar. Azərbaycanı qaralamaq istəyən qüvvələr bu mövzudan istifadə edirlər. Bununla bizimlə ABŞ-ın münasibətlərini korlamaq istəyirlər. Onlar öz məqsədlərinə çatmayacaqlar. Bu gün Azərbaycanı düşündürən məsələ Dağlıq Qarabağ problemidir. Mən düşünmürəm ki, biz "S-400"lərdən burada kiməsə qarşı istifadə etmək niyyətini güdək.

O vaxt dost ölkə olduğumuz üçün Mövlud Çavuşoğlu belə bir ehtimalı səsləndirdi. Yerləşdirmək hələ o demək deyil ki, tam döyüş vəziyyətinə gətirilsin. Ola bilər ki, növbəti divizionlardan biri və ya ikisi müvəqqəti olaraq Azərbaycanda saxlansın, sonra Türkiyəyə təhvil veriləcək. Oktyabrda onlar Türkiyədə tam döyüş hazırlığı vəziyyətinə gətiriləcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Avropa Birliyinin xarici siyasət məsələləri üzrə rəsmisi Federika Mogerini Türkmənistanda səfərdə olub. Səfər zamanı o, Türkmənistan xarici işlər naziri Rəşid Meredovla görüşüb. Tərəflər regional əməkdaşlıq, enerji təhlükəsizliyi, əlverişli investisiya mühiti yaratmaq və ekoloji problemlərin birgə həlli ilə əlaqəli olan yeni Aİ Mərkəzi Asiya Strategiyasını müzakirə ediblər.**

# Azərbaycanın yaratdığı enerji və nəqliyyat-logistika layihələri Avropa Birliyinin Türkmənistana da yolunu açdı

***Arzuxan Əlizadə:** "Aİ-nin Orta Asiyaya nüfuz etməsi Azərbaycanın hesabına mümkündür"*




Görüşdə Avropa Birliyi və Türkmənistan arasında çoxtərəfli əməkdaşlığın intensivləşdirilməsi məsələləri müzakirə olunub. İkitərəfli siyasi dialoq, iqtisadi və regional inteqrasiyanın uğuru, eləcə də mədəni və humanitar əlaqələrin səmərəli təşviqi qeyd olunub.

Tərəflər regional əməkdaşlığın, sosial-iqtisadi inkişafın, enerji təhlükəsizliyinin mühüm rolunu, əlverişli investisiya mühitinin yaradılması və ekoloji problemlərin birgə həlli yolunun vacibliyini vurğulayıblar. Həmçinin, tərəflər nəqliyyat sistemlərinin inkişafı və regional enerji infrastrukturunun, o cümlədən, Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəmərinin inşası sahəsində layihələri müzakirə ediblər.

Müzakirələrdən sonra Türkmənistanda Aİ nümayəndəliyinin yaradılmasına dair sənəd imzalanıb.

Sözügedən qərar çox mühüm addımdır. O mənada ki, Türkmənistanda belə bir nümayəndəliyin açılması ilə Avropa Birliyi Orta Asiyada nüfuzunu artırmağa çalışır. Bu həm də Aİ-nin regiona daxil olmağa başlaması anlamına gəlir. Bütün bunlarda Azərbaycanın apardığı siyasət nə kimi rol oynayıb?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Arzuxan Əlizadənin fikrincə, Azərbaycanın bu məsələdə rolu böyükdür:** "Reallıq ondan ibarətdir ki, Aİ-nin Orta Asiyaya nüfuz etməsi Azərbaycanın hesabına mümkündür.

*"Qurum Aşqabadda nümayəndəliyini açmaqla bu istiqamətdə səylərini bir az da artıracaq"*

Bunu danmaq olmaz. Heç şübhəsiz ki, Azərbaycanın enerji sahəsində həyata keçirdiyi böyük layihələr, ölkənin tranzit imkanlarının artması bu baxımdan ciddi perspektivlər vəd edir. Azərbaycan bu sahədə vacib qərarlar qəbul etməsəydi, o zaman Aİ üçün Orta Asiya bəlkə də bu qədər mühüm əhəmiyyət kəsb etməzdi. Mühüm əhəmiyyət kəsb etsəydi belə, ora daxil olmaq çətin olacaqdı. Ona görə də bütün bunlar bir-birilə sıx bağlıdır. Son illər Aİ Orta Asiyaya daha çox maraq göstərir. Azərbaycan Orta Asiyanı Avropa ilə birləşdirən mühüm körpüdür. Xəzərin hüquqi statusu ilə bağlı razılaşma əldə edildikdən sonra Aİ-nin bu yöndə səyləri daha da artıb.

**Çünki "Transxəzər" layihəsinə ümidlər artıb. Aİ Türkmənistan və digər region ölkələrinin enerji resurslarını Avropa bazarına çıxarmaq istəyir. Azərbaycan bu məsələdə Aİ üçün açar ölkədir. Orta Asiyada Rusiya və Çin kimi böyük oyunçular var. Aİ Aşqabadda nümayəndəliyini açmaqla bu istiqamətdə səylərini bir az da artıracaq".**

***Vidadi ORDAHALLI***

# Trampın dollar planı dünyanı hərəkətə gətirdi, Azərbaycana da çağırışlar var...

**Son bir ayda dünya iqtisadiyyatında müzakirə predmetinə çevrilən əsas məsələ ABŞ dollarının yaxın aylardakı taleyi ilə bağlıdır. Məsələ burasındadır ki, ABŞ elə bu aydan başlayaraq dolları digər valyutalar qarşısında əhəmiyyətli dərəcədə ucuzlaşdırmağı düşünür. Proseslər indiki qaydada davam edərsə, dollar digər valyutalar, eləcə də manat qarşısında əhəmiyyətli dərəcədə dəyər itirməli olacaq.**

Məhz bu səbəbdən bir çox ölkələr indidən dolların mümkün ucuzlaşmasına qarşı cavab tədbirləri hazırlamağa başlayıb. Məsələn, Rusiya ehtiyatında olan dolları daha sürətlə qızıla, avroya və digər valyutalara çevirməyə başlayır. Çində, bəzi Avropa və Asiya ölkələrində də eyni hal qeydə alınır. Ekspertlər hesab edir ki, artıq Azərbaycanın da analoji addımlar atması zərurətə çevrilir. Çünki istənilən halda dolların dəyərdən düşməsi qaçılmazdır.

"Saxo Bank"ın analitikləri də yaranmış vəziyyətdə qeyd edirlər ki, ABŞ Federal Ehtiyat Sistemi dolları zəiflətməyə başlayacaq. Onların fikrincə, Federal Ehtiyat Sisteminin ritorikasında baş vermiş dəyişikliklər ABŞ valyutasının zəifləyəcəyinə dair bir işarədir. Məsələ ilə bağlı Rusiyanın "RİA Novosti" portalı da yazır ki, Federal Ehtiyat Sistemi artıq uçot dərəcələrinin azaldılmasına yönəlmiş yolu seçib: "Analitiklər əmindir ki, uçot dərəcələrinin azaldılması bu il iki dəfə baş verəcək - iyulda və sentyabrda. Yeri gəlmişkən, keçən həftə keçirilən iclas zamanı Federal Ehtiyat Sistemi uçot dərəcələrində heç bir dəyişiklik etməyib. Bundan əvvəl, 2018-ci ildə faiz dərəcələri ardıcıl olaraq dörd dəfə artırılıb. Səbəb kimi o vaxt iqtisadiyyatın özünə gəlməsi və pul stimullarına ehtiyacın olmaması göstərilirdi. Lakin bu ilin martında prezident Donald Trampın təzyiqi altında Federal Ehtiyat Sistemi uçot dərəcəsini artırmaqdan imtina edib. İndi isə növbəti addım uçot dərəcəsinin azaldılması olacaq.

Hələ 1990-cı illərin ortalarından etibarən ABŞ "güclü dollar siyasəti" yürüdüb. Lakin hazırkı prezident Donald Tramp əmindir ki, güclü dollar Amerika iqtisadiyyatına ziyan vurur. Onun fikrincə, həddindən artıq bahalı valyuta malların və xidmətlərin ixracına mane olur və ticarət defisitini artırır. Qeyd edək ki, ticarət defisiti keçən il tarixdə ilk dəfə olaraq 621 milyard dollara çatıb. "Bank of America" hesab edir ki, Tramp valyutaya müdaxilə etmək qərarına gələ bilər: bankın analitiki Mişel Mayerin fikrincə, faiz dərəcələrini azaltmaq kifayət etməsə, valyuta müdaxiləsi baş verəcək. Keçən həftə tvitlərindən birində Tramp yazıb ki, ABŞ dünyada gedən "böyük valyuta oyununa" qoşulmalıdır: "Çin və Avropa böyük miqyaslı valyuta manipulyasiyası ilə məşğuldur - onlar ABŞ-la rəqabət aparmaq üçün öz iqtisadiyyatlarına pul doldururlar. Biz ya müvafiq olaraq hərəkət etməli, ya da tənbəllik edərək başqa ölkələrin artıq neçə illərdir oynadığı bu oyunları nəzakətlə izləməyə davam etməliyik!". Lakin Trampın zəif dollar siyasəti iqtisadi artımı sarsıda bilər. Ekspertlər izah edir ki, bu strategiya uzunmüddətli perspektivdə səhvdir - o yalnız ölkə borclarının dəyərini artırır. Siyasət dolların stabilliyinə qarşı yönəlsə, xaricilər Amerikanın dövlət borcunu maliyyələşdirməyəcək. Dollar isə dünyanın ehtiyat valyutası kimi qəbul edilir və ABŞ da tamamilə bundan asılıdır. Amma vəziyyət dəyişir və elə ABŞ siyasəti nəticəsində dollardan imtina edən ölkələrin sayı artır".

Onu da qeyd edək ki, dünyada ən böyük iqtisadiyyata malik ölkələrdən biri kimi dəyərləndirilən Çinin xarici ticarətdə tədricən dolllardan imtina etməsi ABŞ üçün artıq ciddi problemə çevrilir. Çinlə ABŞ arasında dərinləşən ticarət savaşı Pekinin dollardan imtinasını sürətləndirir. ABŞ isə Çinlə ticarətdə kəsiri əsas gətirirərək, ticarət savaşını hələ yaxın tezlikdə biitirməyi düşünmür.

Xatırladaq ki, Çinlə ABŞ arasındakı ticarət əlaqələrinin ədalətsizliyi Donald Trampın seçki kampaniyasının mövzularından biri idi və Vaşinqtonun bu məsələ ilə ciddi məşğul olacağı o vaxtdan məlum idi. İki ölkə arasındakı ticari bağ o qədər qüvvətlidir ki, elə o vaxt bütün beynəlxalq iqtisadi qurumlar bu konfliktin dünya iqtisadiyyatını yavaşladacağını və dünya ticarət böhranına səbəb olacağını bildirirdi. Buna baxmayaraq, ABŞ-ın qəti mövqeyi problemin daha da dərinləşməsinə gətirib çıxardı. ABŞ Çin qarşısında həm iqtisadi, həm də siyasi tələblər qoyur. İqtisadi cəbhədə Tramp administrasiyası hesab edir ki, ABŞ-ın trilyon dollarlarla ölçülən ticarət kəsiri əslində onun sərvətinin xaricilərə transferidir. Xaricilər isə bu sərvətdən istifadə edərək ABŞ-ın aktivlərini əldə edir və belə davam edərsə, ölkə tamamən xaricilərin əlinə keçəcək. Əlbəttə ki, əsas "xaricilər" çinlilərdir. Siyasi müstəvidə isə ABŞ Çinin Rusiyadan uzaqlaşmasını istəyir. Amma Çin bunları qəbul etmir. Hətta bu günlərdə Rusiya və Çin hesablaşmalarda milli valyutalardan - rubl və yuandan istifadəyə keçid barədə hökumətlərarası saziş imzalayıb. Bu saziş əvvəllər vergiqoymada fərq səbəbindən Rusiya biznesi ilə elə də həvəslə əməkdaşlıq etməyən Çin banklarına yaşıl işıq yandırmış olub. İndi isə razılaşma rubl və yuanla ticarət həcmini dəfələrlə artırmağa imkan verəcək. Rus ekspert Vasiliy Kaşin məsələ ilə bağlı bildirir: "Rusiya və Çinin addımı dollardan istifadənin azaldılması yolunda mühüm gedişdir. Hələ ki, nəticələr böyük deyil. Amma artıq Rusiya və Çin arasında ticarət milli valyuta ilə həyata keçirilir. Türkiyə, İran, Avropa da tezliklə onlara qoşulacaq. Bax bu zaman dollar ciddi dəyər itirəcək. Xatırladım ki, Venesuela da neft və neft məhsullarında dollarla ödənişlərdən imtina edir. Dövlət başçısı Nikolas Maduro da Venesualanın digər valyutalardan - rus rublu, yuan, hind rupisi, avro və yapon yenindən istifadə edəcəyini deyib. Bundan əlavə, bu ilin mayında Türkiyə və Hindistan Nyu-York-Dehli biznes forumunda dollardan imtina etmək və ödənişlərdə milli valyutaya keçmək niyyətində olduqlarını bəyan edib".




Böyük iqtisadi güc mərkəzlərindən sayılan Avropa ittifaqı da xeyli müddətdir ki, avronun gücləndirilməsi ilə bağlı tədbirlər planını həyata keçirir. Portuqaliyanın maliyyə naziri Mario Centenonun sözlərinə görə, bir neçə ay davam edən gərgin danışıqlar, çox çətin və uzun bir görüşdən sonra avronu gücləndirmək üçün geniş bir plan hazırlanıb. Hazırda avrozonada olan dövlətlər özlərinin iqtisadi zəmanət sistemini qurmaq istəyirlər. Çünki ABŞ-la bir sıra ölkələr, o cümlədən İran, Rusiya, hətta Kanada müəyyən iqtisadi və ticarət münasibətlərində problemlərlə rastlaşır. Bu problemlər zaman-zaman avrozonada olan ölkələrin də iqtisadiyyatına dolayı və birbaşa təsir edir. Xüsusilə də ABŞ prezidenti Donald Trampın xarici münasibətlərdə qeyri-sabit davranışları Avropa dövlətlərini bu arada daha çox düşündürməyə başlayıb. İqtisadi zəmanət sisteminin qurulması fonunda isə avroya marağın sürətlə artması, bu vəziyyətdə dolların daha sürətlə sıradan çıxması gözlənir. Bu səbəbdən də ölkələr artıq dollarla bağlı siyasətlərini dəyişərək onu başqa valyutalarla əvəz edir.

***Tahir TAĞIYEV***

# Lüt-üryan Ermənistanın Cənub-Şərqi Asiyanın "kiçik iqtisadi əjdahalarına" qoşulmaq xülyaları...

**Nikol Paşinyan hökuməti ölkəsinin sosial-iqtisadi çətinliklərindən qurtulmaq üçün, bir növ, çabalayır. Rusiya və Qərbdən gözləntiləri doğrulmadıqda Ermənistanın Baş naziri hamını təəccübləndirəcək bir səfər reallaşdırıb. Söhbət onun Ermənistanla heç bir iqtisadi, siyasi bağlılığı olmayan Vyetnama səfərindən gedir.**



## ***Rəsul Cahangirli:*** *"İqtisadi baxımdan zəif Ermənistan heç vaxt Sinqapur və Malaziya kimi nəhənglər üçün cəlbedici ola bilməz"*

Belə ki, Paşinyanın rəhbərlik etdiyi nümayəndə heyəti 4-6 iyul tarixlərində Vyetnamda səfərdə olub.

Paşinyanın Vyetnam səfəri erməni mediasının tənqidlərinə tuş gəlib. Məsələn, "Past" qəzeti səfəri tələsik və hazırlıqsız adlandırıb. Bildirib ki, bu il mayın 24-də Ermənistanın Vyetnamdakı səfiri Raisa Vardanyan geri çağırılaraq yerinə Vaqram Kajoyan təyin edilib. Ancaq yeni səfir etimadnaməsini Vyetnam hakimiyyətinə təqdim etmədən Paşinyanın başçılıq etdiyi nümayəndə heyəti bu ölkəyə gedib. Diplomatik qaydalara əsasən, bu anlaşılmazdır.

Vyetnamdan sonra Paşinyan Cənub-Şərqi Asiyanın iqtisadi baxımdan ən inkişaf etmiş ölkəsi Sinqapura səfər edib. Paşinyanın rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkədə rəsmi görüşlərlə yanaşı, biznes dairələri ilə də görüşlər keçirib. Bəzi Sinqapur rəsmiləri onu tərifləyiblər. Görüşlər zamanı Paşinyan guya ölkədə ciddi islahatların aparılması barədə nağıllar uydurub. Bu minvalla, Sinqapurdan olan iş adamlarının diqqətini cəlb etməyə çalışıb.

Nəzərə alsaq ki, Sinqapur başda olmaqla, bir sıra Cənub-Şərqi Asiya ölkələri iqtisadi baxımdan dünyanın "iqtisadi əjdahaları" hesab olunurlar, Ermənistanın bu ölkələrlə yaxınlaşma cəhdləri hansı iqtisadi nəticələr doğura bilər? Ermənistan iqtisadi baxımdan yerində sayan geriqalmış ölkədir, o zaman bunun hansı perspektivindən söhbət gedə bilər?

*"Paşinyanın sözügedən səfərinin hansısa perspektivindən danışmaq gülüncdür"*

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, sadəcə, görüntüdür:** "Paşinyan ictimaiyyəti aldatmaq istəyir ki, guya nəsə edir. Əslində, Ermənistan Baş nazirinin Cənub-Şərqi Asiya ölkələrinin diqqətini cəlb etmək cəhdi özünü doğrultmayacaq. Ona görə ki, iqtisadi baxımdan zəif Ermənistan heç vaxt Sinqapur və Malaziya kimi nəhənglər üçün cəlbedici ola bilməz. Səfər zamanı rəsmilər səviyyəsində səslənən diplomatik məzmunlu xoş sözlər nəyisə dəyişməyəcək. Ən azından, Ermənistanda böyük alıcılıq bazarı olsaydı, bəlkə də həmin ölkələr hansısa maraq göstərərdilər. O mənada ki, məhsullarını Ermənistanda satardılar. Ancaq Ermənistanın belə bir potensialı praktiki olaraq yoxdur. Başqa bir tərəfdən, Ermənistanın iqtisadi-ticarət nöqteyi-nəzərdən əlverişli mövqeyi olsaydı, o zaman Sinqapur sərmayə qoymaqda maraqlı olardı. Göründüyü kimi, Ermənistan buna da sahib deyil. Belə olan halda, əlbəttə ki, Paşinyanın sözügedən səfərinin hansısa perspektivindən danışmaq gülüncdür".

***Vidadi ORDAHALLI***

# "Daşnaksütyun" qondarma "DQR"də hakimiyyətə gəlsə... Qarabağ danışıqlarında yeni şərait...

**Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının irəli sürülməsində, hər iki ölkədəki terror aktları və soyqırımlarda, tarixi və hüquqi torpaqlarımızın ələ keçirilməsində əsas rol oynamış qatı millətçi, terrorçu "Daşnaksütyun" partiyası işğal altındakı torpaqlarımızda qondarma separatçı rejimin 2020-ci ildə keçirəcəyi "prezident" və "parlament" "seçkiləri"nə qatılmaq haqda qərar verib.**



## ***Hatəm Cabbarlı:*** *"Daşnakların "DQR"də hakimiyyətə gəlməsi Qarabağla bağlı sülh prosesinə də mənfi təsirini göstərəcək"*

Erməni KİV-i bildirir ki, "Daşnaksütyun" partiyasının rəhbərliyi müzakirələrdən sonra bu ilin payızında qurumun Dağlıq Qarabağda "prezidentliyə namizədinin" adının açıqlanacağını bildirib. Daşnaklar, həmçinin, qondarma rejimin təşkil edəcəyi növbəti "parlament" "seçkiləri"ndə iştirak edəcəklərini bəyan ediblər.

Qeyd edək ki, hazırda Ermənistan rəhbərliyi ilə qondarma "DQR" rəhbərliyi arsındakı münasibətlər gərgindir. Paşinyan, nəyin bahasına olursa-olsun, oradakı hakimiyyəti ələ keçirmək istəyir, ancaq hələ ki, buna müvəffəq ola bilmir. Bir müddət əvvəl erməni KİV-i Paşinyanın oranın rəhbərliyinə gətirəcəyi namizədi də müəyyənləşdirdiyini bildirdi. Bu xüsusda bir generalın adı çəkilir. Belə vəziyyətdə terrorçu ənənələrə sadiq olan "Daşnaksütyun" partiyasının fəallaşmasını necə qiymətləndirmək olar? Onların "DQR"də hakimiyyətə gəlməsi mümkündürmü? Bu baş tutsa, danışıqlar prosesində hansı yeni şəraiti yarada bilər?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, "Daşnaksütyun" qondarma qurumda keçiriləcək "seçkilərdə" iştirak etmək, hətta qalib gəlmək niyyətini açıq ortaya qoyur:** "Hətta onlar bəyan ediblər ki, qalib gəlmək üçün partiya üzvü olmayan, lakin onlara simpatiya bəsləyən birini də dəstəkləyə bilərlər. Hələlik "seçkilərə" bir il vaxt var. İndidən göstərilən fəallıq onu deməyə əsas verir ki, partiya seçkilərdə qalib gəlməyi hədəfləyib və bu istiqamətdə bütün resurslarından istifadə edəcək. Mənim qənaətimcə, partiya kənar şəxsə dəstək verə biləcəkləri ilə bağlı manevr edir. Böyük ehtimalla "seçkilərə" öz namizədi ilə qatılacaq. Paşinyan hakimiyyətə gələndən sonra Ermənistanla qondarma qurum arasındakı münasibətlər çox gərginləşib. Bu da "DQR"də millətçi kəsimə rəğbəti bir az da artırıb. Belə vəziyyət daşnakların qalib gəlmə ehtimalını yüksək edir. Nikol Paşinyan hadisələrin bu axarla getməsinə razı deyil. Onun 2020 illə bağlı öz planları var. O, özünə daha yaxın olan bir şəxsi orada hakimiyyətə gətirmək istəyir. Artıq həmin "seçkilərdə" ciddi mübarizənin yaşanacağı ortadadır. Çünki iddiaçı tərəflərin bir-birinə münasibəti barışmazdır. Bu da qondarma rejimlə Ermənistan arasında onsuz da gərgin olan münasibətləri bir qədər də gərginləşdirəcək.

Daşnakların "DQR"də hakimiyyətə gəlməsi Qarabağla bağlı sülh prosesinə də mənfi təsirini göstərəcək. Ona kimi Paşinyan hakimiyyətdə qalarsa, tərəflər arasında məhz bu məsələyə görə də ciddi problemlərin yaşanacağı təxmin edilir. Çünki hələlik birillik hakimiyyəti dövründə heç bir konstruktiv addım atmayan Paşinyan məhz daşnaklar tərəfindən sərt tənqid edilir. Onlar daha sərt xəttin yürüdülməsini istəyirlər. Bundan sərt xətt nə ola bilər? Bir adı var, danışıqları bloklamaq".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanın strateji müttəfiqi olan Türkiyə Qərb dünyası ilə yaxın tezlikdə daha böyük problemlər yaşaya bilər. Hətta baş verənlərin savaş həddinə qədər yüksəlməsi də istisna olunmur. Bütün bunlara əsas səbəb Türkiyənin Şərqi Aralıq dənizində enerji axtarışları aparmasıdır. Hazırda Şərqi Aralıq dənizində enerji axtarışları aparan Türkiyənin "Yavuz" gəmisi Cənubi Kipri narahat etməyə davam edir.**

# Türkiyə-Rusiya cütlüyünə qarşı Aralıq dənizində Qərbin "qaz savaşı" qızışır

Yaranmış vəziyyətdə məlum olub ki, yunanlar Şərqi Aralıq dənizində Türkiyə ilə əməkdaşlıq edən şirkətləri istintaqa cəlb edəcək. Türkiyənin bölgədə enerji axtarışlarından ABŞ, İsrail və Yunanıstan narahatdır. Avropa İttifaqı Türkiyəyə dəfələrlə bu məsələ ilə bağlı etirazını çatdırıb. Eyni zamanda Qərb ölkələri aktiv şəkildə bölgəyə hərbi qüvvələr cəmləşdirir və bir neçə dəfə də hərbi təlim keçirərək Ankaraya xəbərdarlıq ediblər. Lakin Türkiyə də geri çəkilmək niyyətində deyil. Baş verənlərlə ilgili Rusiyanın "Nezavisimaya gazeta" mətbu orqanı yazır ki, hadisələrin gedişi Aralıq dənizində dəhşətli savaşa gətirib çıxara bilər: "Türkiyənin "Yavuz"ikinci qazma gəmisi artıq Kipr sahillərinə çatmalıdır - Cənubi Kiprin, onun paytaxtı Nikosiyanın özünün müstəsna iqtisadi zonası saydığı bölgəyə. Ankara bu qayda ilə adanın yaxınlığında aşkarlanmış və onun Rusiya ilə birgə "Türk axını" layihəsinə az qala əsas təhlükə olan mübahisəli qaz yataqları ətrafında münaqişədə tarifi yüksəldir. Energetika sahəsində Kiprlə ümumi maraqları bölüşən Yunanıstan dəfələrlə əndişə ifadə edib ki, Türkiyənin Şərqi Aralıq dənizində fəaliyyəti belə genişləndirməyi "silahlı epizoda" gətirə bilər. Cümhuriyyətin, Osmanlının dəniz komandanlarından birinin şərəfinə "Barbaros" adlandırılan Hərbi Dəniz Qüvvələrinin əsas freqatlarından birinin "Yavuz"u müşayiət etməyi Türkiyənin öz qonşuları ilə belə bir "hərbi epizod"a hazır olduğuna yaxşı örnəkdir.

Türkiyənin Energetika Nazirliyi qazma gəmisinin tezliklə Kipr sahillərinə çatacağı haqda məlumat verib. Ölkənin müdafiə idarəsi qıraqda qalmayıb və həm Ankaranın, həm də Nikosiyanın iddia etdiyi bölgəyə gedən yolda "Yavuz"u müşayiət edən "F-16" təyyarələrinin fotoşəkillərini yayıb. Bəllidir ki, indi bölgədə artıq araşdırmalarla məşğul olan "Fatih" qazma gəmisi yerləşir. Kipr hökuməti onun heyətinin həbsi üçün uyğun orderlər verib. Türkiyə Cümhuriyyətinin özü isə deyir ki, bu bölgədə beynəlxalq normalara uyğun fəaliyyət göstərir. Ankarada xəbərdarlıq ediblər - "Fatih"ə münasibətdə istənilən hərəkət cavab tədbirləri törədəcək.

"Fatih"in komandasında təkcə qazma gəmisinin heyəti deyil, həm də energetika sahəsində mütxəssislər olan 25 üzvü saxlanma təhlükəsi altındadır. "Daily Sabah" nəşri Türkiyə XİN-in mətbuat katibi Hami Aksoydan sitat gətirir: "Yunan icması bu qərarı ("Fatih"in heyətini həbs etmək) gerçəkləşdirməyi sınasa, Ankaranın sərt reaksiyası ilə üzləşəcək". Diplomatın sözlərinə görə, Türkiyə Cümhuriyyəti Ankara və Nikosiya arasında energetika mübahisəsi çərçivəsində Kiprin yunan icmasının fəaliyyəti haqda məlumatları diqqətlə izləyir. Türkiyənin diplomatik idarəsində vəd ediblər: "Yunan icmasının kiprli türklərin qanuni hüquqlarına etinasızlığa yönəlmiş və Türkiyənin qitə şelfindəki qazma işlərinin qabağını almaq səyləri iflasa məhkumdur. Kəşfiyyat və qazma işləri təsdiqlənmiş qrafikə uyğun davam edəcək".

"Turkish Petroleum Corporation" (TPAO) dövlət neft şirkətinin baş direktoru Melih Xan Bilgin bu yaxında deyib ki, "Yavuz"un sahibi olan şirkəti qazıntıya başlayacaq. O bildirib: "İşləri aparmaq üçün lokasiya müəyyən edildikdən sonra qazıntıya başlayacağıq. Min metr sudan və üç min metr süxurdan keçiləcək. Bu mərhələ bitəndə gəmini növbəti sahəyə keçirəcəyik". TRAO başçısı əlavə edib ki, "gəminin işinin hədəfi yalnız elmidir" və Kipr şelfində "5-6 il əvvəl başlanmış seysmik araşdırmaların davamıdır". Onun sözlərinə görə, "digər tərəfin fəaliyyəti şirkəti narahat etmir".

Durumu bu qəlizləşdirir ki, Ankara Nikosiyanın özünün müstəsna iqtisadi zonası saydığı bölgədə qazma işlərini davam etdirərsə, Yunanıstan və Kipr bu yaxınlarda Avropa İttifaqından antitürkiyə sanksiyaları tətbiq etmək vədinə nail olub. Avropa İttifaqının dövlət və hökumət başçıları artıq Avropa Komissiyasına Türkiyəyə münasibətdə nöqtə tədbirləri hazırlamaq tapşırığı veriblər. "Avropa Şurası təəssüf edir ki, Ankara dəfələrlə səslənən bu fəaliyyəti dayandırmaq çağırışına indiyədək cavab verməyib, - Avropa İttifaqı dövlətləri liderlərinin bəyanatında deyilir. - Avropa İttifaqı hadisələrin inkişafını diqqətlə izləməyi davam etdirəcək və Kiprlə tam həmrəy və uyğun reaksiya verməyə hazırdır".

Bundan başqa, məsələ NATO-nun müdafiə nazirlərinin iyunun sonunda Brüsseldə keçirilmiş görüşündə də fəal müzakirə olunub. Yunanıstanın milli müdafiə naziri Evangelos Apostolakis türkiyəli həmkarı Hulusi Akara bildirib ki, ölkəsi bölgənin təhlükəsizliyini qoruyacaq. Türkiyə mübahisəli ərazilərə münasibətdə fəaliyyətini davam etdirəcəyi halda Yunanıstan "silahlı epizod" ehtimalı haqda xəbərdarlıq edib. Amma Kiprlə bağlı məsləni indi Yunanıstanın yeni baş naziri həll etməli olacaq. Yunanıstanda müxalif sağ mərkəzçi "Yeni Demokratiya" partiyası Kiriakos Mitsotakisin başçılığı ilə istirahət günləri keçirilən seçkilər nəticəsində 39,83% səs toplayaraq inamlı qələbə qazanıb. Daxili İşlər Nazirliyinin hesablaması göstərib ki, YD səsvermənin nəticələri üzrə 300 yerlik birpalatalı parlamentdə 158 yerə sahib olacaq.

Yunanıstan Kipr və İsraillə birlikdə Şərqi Aralıq dənizindəki yataqları birgə işləyən dövlətlərin "qaz üçbucağı"nı təşkil edir. Ankara və Nikosiya arasındakı mübahisələr hər şeydən qabaq 2011-ci ildə "Noble Energy"-nin başçılığı ilə konsorsium tərəfindən ada sahillərinin yaxınlığında kəşf edilmiş "Afrodita" yatağına toxunur. Ərazini özünün müstəsna iqtisadi zonası elan etmiş Kipr artıq bir neçə xarici şirkətə işləmək üçün lisenziya verib. Sərvəti, haradasa,




140 milyard kubmetr dəyərləndirilən "Afrodita"dan qaz ixracatı Avropa paytaxtları ilə artıq uzlaşdırılıb. Niyyətə görə, mavi yanacaq "EastMed" adlandırılan sualtı qaz borusu magistralı ilə Aralıq dənizindən keçməlidir. Bu, habelə, Avropa üçün nəzərdə tutulan "Türk axını" Rusiya-Türkiyə layihəsinin maraqları ilə birbaşa münaqişə yaradır. Adanın energetika potensialı hətta ABŞ-ı özünün Aralıq dənizi strategiyasına yenidən baxmağa və Yunanıstan, İsrail və Kiprin energetika işbirliyini dəstəkləməyə vadar edib. Senatorlar "Şərqi Aralıq dənizində təhlükəsizlik və tərəfdaşlıq haqda qanun" adlı qanun layihəsi hazırlayıblar. Sənəddə Nikosiya üçün ən önəmli bəndlər yazılıb - 1987-ci ildə qoyulmuş silah embarqosunun ləğvi, təhlükəsizliyin Kipr sektorunu maliyyələşdirmək, Kipr, Yunanıstan və İsrail arasındakı işbirliyinə dəstək. Düzdür, demokrat senatorun və Robert Menendes təşəbbüsünü hazırlayanlardan birinin isması ilə hələlik kağız üzərində Rusiyaya birbaşa toxunan dəyişikliklər edilib. Məsələn, qanun layihəsi Amerika administrasiyasından "Kipr hökumətinin Rusiya hərbi gəmilərinə Kipr limanlarından yanacaq doldurmaq və xidmət üçün istifadə etmək imkanı vermək praktrikasını dayandırmaqdan ötrü tələb edilən bütün tədbirləri gördüyü və buna davam etdiyi" haqda illik hesabat tələb edir". Bütün bunlar Aralıq dənizində yeni qarşıdurmaya yol açır.

**_Nahid SALAYEV_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənilər Qarabağı döyüşsüz təslim etmək zorunda...

**Ermənistan daxilində getdikcə dərinləşən ziddiyyətlərin, "Qarabağ klanı" ilə baş nazir Nikol Paşinyan arasında kəskinləşən qarşıdurmanın Dağlıq Qarabağ münaqişəsinə hansı formada təsir göstərəcəyi də xüsusi diqqət mərkəzində yer almağa başlayır. Hesab edilir ki, hadisələr indiki məcrada inkişaf edərsə, daxili qarşıdurmalar səbəbindən Ermənistan, eləcə də zəbt edilmiş Azərbaycan ərazilərində yaradılmış separatçı rejim daha da zəifləyəcək.**

Bu vəziyyətdə işğalçı ölkənin indiki Qarabağ siyasətini davam etdirməsi də mümkünsüz sayılır.

Hazırda proseslərin təhlili bu qənaətə gəlməyə əsas verir ki, qarşıdakı dövr ərzində erməni tərəfi daha böyük parçalanmalara məruz qalacaq. "Qarabağ klanı" bütün bu baş verənlərdə əsas günahkar qismində Paşinyanı görür və fəaliyyətini də elə bu istiqamətdə qurur. Erməni parlamentinin sabiq sədri, Respublika Partiyasının ali orqanının üzvü Qalust Sahakyan bu xüsusda bildirir: "Biz bütün istiqamətlərdə iflasa gedirik. Bura Qarabağ münaqişəsi ətrafında yaranan vəziyyət də daxildir. Səbəb ölkədə diktatura rejiminin qurulmasıdır. Bu gün Ermənistanda parlament yoxdur, yalnız nə isə etməyi "bacaran" Paşinyan mövcuddur". Onun sözlərinə görə, ölkə Paşinyanın əlindədir və hökuməti o idarə edir:

"Ermənistanda parlament, hökumət yoxdur. Ölkədə baş verən böhranın bir gün düzələcəyinə ümid edirəm. Lakin bu proses Paşinyan hakimiyyətdən gedəcəyi təqdirdə mümkün olacaq".

Ermənistanın "Joğovurd" nəşri yazır ki, "Qarabağ klanı" ilə Paşinyanın daha qanlı toqquşması gələn il baş verəcək. Çünki gələn il işğal altındakı ərazilərdə "prezident seçkiləri" keçiriləcək. Bu zaman Paşinyan və "Qarabağ klanı" separatçı rejimin başına öz adamlarının gəlməsini istəyir. Xatırladaq ki, Paşinyanın əsas namizədi qondarma qurumun keçmiş "müdafiə naziri" Movses Akopyandır. "Qarabağ klanı" isə separatçıların başında Qarabağ "Təhlükəsizlik Şurasının" rəhbəri Vitali Balasanyanı görmək istəyir. Ermənistanın "Jamanak" nəşri yazır ki, Vitali Balasanyana "Qarabağ klanı" hərtərəfli dəstək verir. Onu sabiq prezidentlər Robert Köçəryan və Serj Sarkisyan tam şəkildə dəstəkləyir. Hətta "Jamanak" yazır ki, artıq sabiq müdafiə naziri Seyran Ohanyan da onlara qoşulub: "Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyan ikinci prezident Robert Köçəryanla eyni komandada fəaliyyət göstərir. Bu fonda Vitali Balasanyanın namizədliyinin xeyrinə aparılan təbliğat kampanyasına Seyran Ohanyan da fəal şəkildə qoşulub. Ohanyan Köçəryanla eyni komandada fəaliyyət göstərir. Onlar seçkilərin yekun mərhələsində fəallaşmağa qərar veriblər". "Jamanak" yazır ki, "Qarabağ klanı" istənilən yolla Vitali Balasanyanı separatçıların rəhbəri postuna gətirməyə çalışır: "Paşinyan anlayır ki, belə vəziyyətdə Qarabağdakı rejimə öz şərtlərini diqtə edə bilməyəcək. Vitali Balasanyan və onun ətrafında toplaşmış güclü qruplaşma Movses Akopyana qalib gələ bilər". Nəşr qeyd edir ki, Paşinyan Akopyanın güclü rəqibi olduğunu yaxşı anlayır: "Paşinyan anlayır ki, Vitali Balasanyan və onun ətrafında toplaşmış güclü qruplaşma Movses Akopyana qalib gələ bilər. Akopyan Balasanyanın qruplaşmasına qarşı çıxmaqdan qorxmur və qruplaşma tərkibində mümkün təhdidlərə yer verməyəcək. Bu fonda o, həm də Paşinyandan dəstək gözləyir".

"Jamanak" yazır ki, belə vəziyyətdə Paşinyan Qarabağda vəziyyəti qarışdırmağa çalışır. O, Dağlıq Qarabağda Silahlı Qüvvələrin keçmiş komandanı Samvel Babayan vasitəsilə burada aksiyalar təşkil edib, "Qarabağ klanı"nın mövqeyini sarsıtmağa cəhd göstərir. Nəşrə görə, qondarma qurumun "milli təhlükəsilik xidməti" 2020-ci ildə "seçki"lərdə iştirak etmək arzusunda olan qüvvələrə və şəxslərə ayıqsayıqlıq çağırışı edib: "Maraqlıdır ki, Qarabağda bu çağırışın Samvel Babayana ünvanlandığını hesab edirlər. Artıq Babayanın Qarabağda mitinqlərin keçiriləcəyi barədə bəyanat verdiyi bildirilir. Belə mitinqlərlə Qarabağda vəziyyəti destabil hala gətirmək olar. Bu metod ötən il Ermənistanda uğurla sınaqdan keçib və hakimiyyət dəyişikliyinə səbəb olub". "Qarabağ klanı" buna cavab olaraq Paşinyan iqtidarı daxilində ziddiyyətlərin yaranmasına çalışır. Elə erməni politoloqları da hesab edirlər ki, yaxın vaxtlarda Ermənistan iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq. Çünki, bir tərəfdən iqtidarda olan "Vətəndaş müqaviləsi" partiyasında vəzifələr uğrunda çəkişmələr güclənib, digər tərəfdən isə Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradır. "Qarabağ klanı" məhz bu vəziyyətdən yararlanıb, hakimiyyət daxilində ziddiyyətlərin güclənməsinə nail olmaqla Paşinyanın mövqeyini zəiflətməyə çalışır.

Politoloq Armen Badalyan qeyd edir ki, Paşinyan hökumətinin daxilində çəkişmələr getdikcə artır və bu da "Qarabağ klanı"nın lehinə işləyir. Onun sözlərinə görə, Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini etiraf edib. Bu isə, öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur: "İndi "Qarabağ klanı" bütün bunlara dair cəmiyyətdə geniş təbliğat işi aparır. Bu cür şəraitdə hakimiyyətdaxili mübarizənin güclənməsi labüddür. "Qarabağ klanı"nın istədiyi də elə budur. Çünki bununla Paşinyanı daha tez hakimiyyətdən salacaqlarını düşünürlər".

Erməni politoloq yaranmış vəziyyətin daha bir təhlükəli nüansını diqqətə çatdırıb. Belə ki, Paşinyanın ölkənin rayonlarında olan bəzi tərəfdarları həm yüksək nüfuza, həm də silahlı dəstələrə malikdir. Armen Badalyan bu yaxınlarda Kotayk vilayətində Sasun Mikaelyan və Romanos Petrosyan arasında hakimiyyət uğrunda mübarizəni də misal gətirib. Onun sözlərinə görə, əvvəllər siyasətdən uzaq və yalnız vəzifə bölgüsü ilə məşğul olan Respublika Partiyasının yerini Paşinyanın partiyası tutub. Ekspert hesab edir ki, öncəki iqtidar partiyası kriminal oliqarxiyanın "siyasi dizaynı" idi, indiki partiya isə Paşinyanın ətrafındakı adamların vəzifə uğrunda çəkişməsi üzrə "siyasi dizayn"dır. Politoloq əlavə edib ki, demokratik ölkələrdə partiyalardakı qruplaşmalar ideoloji əsaslarda formalaşırsa, məsələn, liberal və ya mühafizəkar prinsipləri üzrə, Ermənistanda isə ideologiyadan kənar və liderə yaxın olmaq əsas götürülür. O əlavə edib ki, bu yaxınlarda dövlət nəzarət xidmətinin başçısı David Sanasaryanla səhiyyə naziri Arsen Torosyan arasında düşmənçilik həddinə çatan mübarizə də buna əyani misaldır. Ekspert bu çəkişmələrin iqtidar partiyasını və son nəticədə dövləti zəiflədəcəyini vurğulayıb: "Bəs bütün bunlar kimin lehinə işləyəcək? Əlbəttə, "Qarabağ klanı"nın. Aydındır ki, Paşinyanın başı çəkişmələrə qarşıdığı bir vaxtda o, Qarabağdakı rejimlə bağlı istəyinə nail olmayacaq. Lakin istənilən halda, belə qarşıdurmalar Qarabağ məsələsində Ermənistanın mövqelərini zəiflədir. Biz Qarabağı döyüşsüz təslim edə bilərik".

İndilikdə görünən budur ki, tərəflər mövqeyindən geri çəkilməyi düşünmür. Bu durumda yayılan məlumata görə, Paşinyan tezliklə "Qarabağ klanı"nın daha bir neçə nümayəndəsini həbsə atacaq. Xatırladaq ki, Nikol Paşinyan artıq "Qarabağ klanı"nın əsas lideri olan Köçəryanı yenidən həbsə atıb. Bundan əvvəl eks-prezident Qarabağın keçmiş və indiki separatçı rəhbərlərinin məhkəmədə iştirakı və girov təqdim etməsindən sonra, mayın 18-də azadlığını qazanmışdı. Ancaq o vaxt Ermənistan Baş Prokurorluğu bu qərara etiraz etmişdi. Bu etirazın arxasında baş nazirin iradəsinin dayandığı şübhə doğurmurdu. Məhz bundan sonra Paşinyan məhkəmə sistemindəki Sarkisyan-Köçəryan kadrlarına qarşı mübarizəyə başladı və şübhə yox idi ki, proseslər eks-prezidentin həbsxanaya qaytarılması ilə nəticələnəcək. Elə belə də oldu. Paşinyan şübhə etmir ki, ona ən ciddi təhlükə "Qarabağ klanı"nın iki liderindən, onların məhkəmə-hüquq, ordu və polis sistemindəki əlaltılarından gələ bilər. Odur ki, hökumət başçısı israrla rəqiblərinin kadrlarını təmizləmək işinə girişib. Digər tərəfdən, Paşinyan 2020-ci ildə Dağlıq Qarabağ separatçılarının başına özünə sadiq adamı "prezident" gətirmək planı üzərində işlədiyindən, klanın liderlərinə qarşı daha sərt hücumlar təşkil etməyi düşünür. "Qarabağ klanı" isə açıq bəyan edir ki, belə vəziyyət Dağlıq Qarabağın Azərbaycanın nəzarətinə qayıtması ilə nəticələnəcək. Qeyd edək ki, son həbsindən az əvvəl Köçəryan özü də bu xüsusda maraqlı açıqlamalar vermişdi. Ermənistanın sabiq prezidenti Paşinyan hökumətini sərt tənqid edərək, indiki hakimiyyəti Qarabağla bağlı təhlükəli siyasət aparmaqda günahlandırmışdı. Köçəryan İrəvanın "Beşinci Kanal"ına müsahibəsində demişdi ki, Paşinyan qondarma "DQR"in işlərinə çox qarışmaqla danışıqlar prosesində Ermənistanın mövqeyini zəiflədir və qondarma rejimin statusunu aşağı salır. "Mən Ermənistan prezidenti olandan sonra heç vaxt Qarabağın işlərinə qarışmamışam, bunu Serj Sarkisyan da etmirdi. Amma Qarabağ indiki hakimiyyət üçün dəyər deyil. İndiki hakimiyyət üçün Qarabağ ağır yükdür, dəyər yox. 90-cı illərdə Levon Ter-Petrosyanın idarəçiliyi dövründə də belə olub. Şüuraltı olaraq hakimiyyət düşünür ki, canını bu ağır yükdən necə qurtarsın". Ermənistanın baş naziri Dağlıq Qarabağdan olan siyasətçiləri ikili oyun oynamaqda ittiham etmişdi. Bu fonda Köçəryanın məlum açıqlamaları Paşinyan üçün xoşagəlməz perspektivlər vəd edirdi və o, bu fonda Köçəryanı yenidən həbsə göndərdi. İndi gözlənir ki, yaxın tezlikdə "Qarabağ klanı"nın digər təmsilçiləri ilə də bağlı eyni addım atılsın. "Qarabağ klanı"nın revanş istiqamətində atdığı addımlar isə vəziyyəti daha da qəlizləşdirir və erməni cəmiyyətini daha zəif hala gətirir. Məhz bu vəziyyətdə işğalçı ölkənin təcavüzkar Qarabağ siyasətini davam etdirə bilməsi də müşkül sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənilər İrəvandakı "Göy məscidi" də UNESCO siyahısında öz adlarına çıxmaq istəyir

***Faiq Ələkbərli:** "İrəvandakı tarixi "Göy məscid"in Ermənistan tərəfindən UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması cəhdlərinin qarşısının alınması üçün tədbirlər görməliyik"*

**Saxtakarlıqda tayı-bərabəri olmayan ermənilər həm işğal altında saxladıqları ərazilərimizdə, həm də tarixi dədə-baba yurdumuz olan Qərbi Azərbaycandakı abidələrimizə qarşı saxtalaşdırma prosesini davam etdirirlər. Məlum olduğu kimi, ermənilər Qərbi Azərbaycandakı bəzi qədim alban-xristian abidələrini "erməni abidələri" kimi UNESCO-da qeydiyyatdan keçirməyə nail olublar.**

Bununla kifayətlənməyən bədnam qonşularımız indi də Azərbaycan türklərinə məxsus olan İrəvandakı "Göy məscidi" erməni abidəsi kimi UNESCO-nun siyahısına daxil etmək niyyətindədirlər. İranda səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan İRNA-ya müsahibəsində bildirib ki, məscidin UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilməsinə dair müraciət hazırlayıb. O, həmçinin, deyib ki, bununla bağlı İran tərəfi ilə birlikdə iş aparılır və bəzi korrektələrdən sonra UNESCO-ya müraciət ediləcək.

Paşinyan əlavə edib ki, bu, İranla bu məsələ ilə bağlı ilk əməkdaşlıq deyil. "İranın səyləri sayəsində Müqəddəs Faddey və Müqəddəs Stepanos monastırları UNESCO-nun siyahısına daxil edilib" - deyə Ermənistanın Baş naziri bildirib.

**Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli bizimlə söhbətində bildirdi ki, Ermənistanın "Göy məscid"i öz adına UNESCO-ya daxil etmək niyyətinin baş tutmasına heç cür imkan vermək olmaz. "Göy məscid"in 1760-cı (1765) illərdə Hüseynəli xan tərəfindən inşa etdirildiyini xatırladan F.Ələkbərlinin sözlərinə görə, bu məscid Azərbaycan türklərinə məxsusdur, onun nə farslarla, nə də qeyri-millətlərlə əlaqəsi yoxdur.** İrəvanın tarixi Azərbaycan şəhəri olduğunu deyən F.Ələkbərli qeyd etdi ki, soydaşlarımız indiki Ermənistan ərazisindən ermənilər tərəfindən deportasiya edilənə qədər bu məsciddə Azərbaycan türkləri ayin icra ediblər. İrəvanın köklü əhalisinin türklər olduğunu vurğulayan F.Ələkbərlinin sözlərinə görə, deportasiyadan sonra ermənilər bu məscidə əl uzadıblar.



*"Ermənilər artıq dövlət səviyyəsində bu məkrli niyyətlərini ortaya qoyublar"*

İrəvanda yerləşən tarixi "Göy məscid"in adının ermənilər tərəfindən dəyişdirilərək "Fars məscidi" adlandırılmasının da növbəti erməni saxtakarlığı olduğunu deyən ekspert hesab edir ki, bu faktın özü də, bütövlükdə, bütün müsəlmanları, o cümlədən də Türk dünyasını ciddi narahat etməlidir. F.Ələkbərli qeyd etdi ki, Azərbaycan xanı tərəfindən inşa etdirilən bir tarixi məscidin "Fars məscidi" adlandırılması da absurddur. "İrəvandakı tarixi "Göy məscid"in - cümə məscidinin Ermənistan tərəfindən UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması cəhdlərinin qarşısının alınması üçün tədbirlər görməliyik. Ermənilər artıq dövlət səviyyəsində bu məkrli niyyətlərini ortaya qoyublar. Bilirsiniz ki, ermənilərlə farslar arasında isti münasibətlər mövcuddur və ermənilərin də indiyə qədər "Göy məscidi" dağıtmamasının səbəbi budur. Onlar məscidi dağıtmayıblar amma adını dəyişib "Fars məscidi" qoyublar. Yəqin ermənilər "Göy məscidi" "fars mədəniyyətinin" örnəyi kimi UNESCO-ya daxil etmək istəyirlər. Paşinyan özü deyib ki, bu barədə İranla müştərək iş aparırlar. Hesab edirəm ki, bu barədə İran tərəfə də mesajlarımızı ötürməliyik. Bəlkə heç İranın bu məsələdən xəbəri yoxdur, Paşinyan onların adlarından danışır. Nəzərə alsaq ki, Paşinyan indiyə qədər bu cür saxta çıxışlar çox edib, bu baxımdan o, İran tərəfə şər də ata bilər. Hər halda, bu məsələ İran tərəfi ilə də dəqiqləşdirilməlidir".

F.Ələkbərlinin sözlərinə görə, türklərə aid bir məscidin xarici turistlərə, o cümlədən də BMT qurumuna "Fars məscidi" kimi təqdim edilməsi cəhdləri növbəti erməni saxtakarlığıdır. "Bu gün Ermənistanda bir nəfər də olsa türk qalmayıb, ermənilər onları öz tarixi yurdlarından didərgin salıblar. Oradakı bütün abidələrimiz saxtalaşdırılıb, məscidlərimiz dağıdılıb, yerlə yeksan edilib. Hazırda İrəvanda qalan yeganə erməniləşdirilməyən abidəmiz "Göy məscid"dir ki, onu da ermənilər məqsədli şəkildə İrəvana gələn xarici turistlərə "Fars məscidi" kimi təqdim edirlər. Azərbaycan türklərinə aid olan "Göy məscid"in "Fars məscidi" kimi təqdim edilməsi və onun bu adla UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi niyyəti tarixi həqiqətlərin təhrif olunmasıdır. Məqsəd də Qərbi Azərbaycandan tamamilə türk izlərini silməkdir" - deyə bildirən F.Ələkbərli vurğuladı ki, İrəvandakı "Göy məscid" 1760-cı ildə Hüseynəli xan tərəfindən inşa edilib və 1765-ci ildə tikintisi başa çatdırılıb. O, həmçinin, qeyd etdi ki, 1776-cı ildə şəhərdə olan səyyahların təsvirlərində gözəlliyinə görə şəhərin ən möhtəşəm abidəsi kimi təqdim etdikləri "Göy məscid" Şərq memarlığının nadir incilərindən sayılır.

Qeyd edək ki, erməni mənbələrinin bildirdiyinə görə, sovet hakimiyyəti qurulduqdan sonra, 1930-cu illərdə İrəvandakı bütün məscidlərin sökülməsi ilə bağlı qərar verilir. Guya erməni şairi Yeğişe Çarensin ciddi cəhdlərindən sonra onun "Mavi brilliant" adlandırdığı "Göy məscid" dağıdılmaqdan xilas olur və 1936-cı ildə məsciddə İrəvan tarix muzeyi yaradılıb. Ermənilərin yazdığına görə, II Dünya müharibəsi zamanı isə məscid həm də silah anbarı kimi istifadə olunub. Müharibədən sonra məsciddə təbiət muzeyi, 1952-ci ildə isə kiçik namaz otağında astronomiya həvəskarları üçün planetarium fəaliyyət göstərib. SSRİ dağıldıqdan sonra müsəlman ölkələri ilə əlaqə quran Ermənistan məscidi ibadət üçün açır və paralel olaraq 1991-ci ildə təbiət muzeyi, 1994-cü ildə isə tarix muzeyi məsciddən çıxarılır.

**Ermənistan mətbuatı yazır ki, 1995-ci ildə İranla Ermənistan arasında əldə olunan razılaşmaya əsasən, İran hökuməti məscidin yenidən təmir və bərpası xərclərini öz üzərinə götürür və 2006-cı ildə məscidin təmir və bərpa işləri başa çatıb. "Göy məscid" kompleksinin 24 metrlik minarəsi, 28 hücrəsi (kiçik otaq), kitabxanası, böyük zalı, minbəri yenidən bərpa edilərək istifadəyə verilib. Bununla da böyük tarixi saxtakarlığa yol verilib və ermənilər məscidi "Fars məscidi" kimi təqdim etməyə başlayıblar.**

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, bu il həm minimum əməkhaqqı, həm də bir sıra dövlət büdcəsi təşkilatlarında çalışanların əməkhaqları, o cümlədən, sosial müavinətlər artırılıb. Sosial istiqamətdə artımlar həyata keçirildikdən sonra əsas diqqət həmişə istehlak bazarına yönəlir. Bazarda qiymətlərin bahalaşmasının qarşısını almaq başlıca vəzifəyə çevrilir.**



# Pensiya və əməkhaqları artmamış meyvə-tərəvəz dəllalları işə düşdülər...

***İlqar Hüseynli:** "Pomidorun topdansatış qiyməti 20-25 qəpikdən yüksək deyil"*

Yeri gəlmişkən, bu ilin əvvəlindən ölkədə həyata keçirilən sosial müdafiə xarakterli tədbirlər büdcə xərclərinin 2 milyard manatdan çox artmasına səbəb olub. Sosial artımları ödəmək məqsədilə dövriyyəyə böyük həcmdə vəsait daxil edilib ki, bunların bir qismi hələ ilin ikinci yarısında da daxil olmaqda davam edəcək. Sonuncu sərəncamlar isə icra edilməyə başlandıqda, dövriyyəyə, üstəlik, 1 milyard manatdan da çox vəsait daxil olacaq. Elə şərait var ki, qiymətləri çox da basqı altında saxlamaq olmaz və bu mümkün də deyil. Ancaq bazarın hər hansı bir seqmentində və yaxud da hər hansı bir zəruri istehlak malında süni qiymət artımı baş qaldırarsa, buna yol verilməməlidir.

Diqqətçəkən məqam ondan ibarətdir ki, son artımları sentyabrdan sonra əhali alacaq. Ancaq indidən bəzi mövsümi tərəvəz məhsullarının qiyməti artıb. Sanki bəzi işbazlar sosial paketin effektini azaltmaqdan ötrü qiymətləri artırırlar. Məsələn, son iki həftə ərzində mövsümün əsas tərəvəzlərindən sayılan pomidor və xiyarın qiymətində bahalaşma müşahidə edilir. Adətən bu vaxt həmin məhsulların qiyməti çox aşağı olur. Hər il ən ucuz badımcan olurdusa, indi badımcanın qiyməti belə bahadır. Hər üç məhsulun qiymətində 40-60 qəpik yüksəlmə var. Digər tərəfdən, düşündürücü məqam odur ki, paytaxt bazarlarında tərəvəzlərdə qiymət artımı sahədəki qiymət artımına adekvat deyil. Məsələn, sahədə qiymət 10-15 qəpik qalxıbsa, Bakıda bu fərq 50-60 qəpiyə qədər hiss edilir.

Göründüyü kimi, meyvə-tərəvəz dəllalları süni şəkildə mövsümi məhsulların qiymətini artımaqla, xoşagəlməz mənzərə yaratmağa çalışırlar. O baxımdan yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

*"İstehsalçıdan məhsulu ucuz qiymətə alan bir sıra sahibkarlar bazarda baha satırlar"*

**Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, bir sıra tərəvəz məhsullarının qiymətinin belə bahalaşması sırf süni amillərlə bağlıdır:** "Düzdür, daxili bazarda nağd pul kütləsi artırsa, bu, bazara öz təsirini göstərir. Ancaq Azərbaycanda həyata keçirilən artımlar bu baxımdan bazara ciddi təsir etməməlidir. Çünki məhsulun maya dəyərinə təsir göstərən amillər mövcud deyil. Bu yaxınlarda Qazax bölgəsinə səfərlər təşkil etdik. İstehsal və emal sahələrinin fəaliyyəti ilə tanış olduq. Məlum oldu ki, bölgədə pomidor və xiyarın qiyməti çox aşağıdır. Pomidorun topdansatış qiyməti 20-25 qəpikdən yüksək deyil. Ancaq Bakıda bazarda qiymətlər bir neçə dəfə bahadır. Qiymət artımını yaradan süni amillərdir. İstehsalçıdan məhsulu ucuz qiymətə alan bir sıra sahibkarlar bazarda baha satırlar. Belə olan halda, bu cür fəaliyyətlə məşğul olan sahibkarların qarşısı alınmalıdır. Bununla bağlı hər hansı bir dövlət mexanizmi işə salınmalıdır. İstehsalçıdan bazara keçid prosesində qiymətlərin artımı fantastik sürətlə baş verir. Bu, sosial artımların effektini indidən aşağı salır. Mövsüm dövründə tərəvəzin qiyməti bu qədər artırsa, mövsümdən sonra necə olacaq? O zaman qiymətlər daha yüksək olacaq. Ona görə də süni qiymət artımının qarşısı alınmalıdır. Eyni zamanda, yarmarkaların sayı artırılmalıdır. İstehsalçılara imkan yaradılmalıdır ki, özləri birbaşa məhsullarını bazara çıxara bilsinlər.

Yəni burada müxtəlif mexanizmlər var ki, onları işə salmaq lazımdır. Belə olsa, o zaman qiymətlərdəki bu anormallığa son qoyulacaq".

***Vidadi ORDAHALLI***

**İyulun 7-də UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında hər bir azərbaycanlını sevindirəcək hadisə baş verdi. Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına salındı. Bu çox əhəmiyyətli və tarixi bir hadisədir.**



# Şəkinin yeni beynəlxalq statusu şəhərə turist axını açacaq...

***Nahid Bağırov:** "Məlum qərar sayəsində Şəki dünyada tanınacaq"*

***Ruslan Quliyev:** "Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarından sonra turistlərin həmin bölgəyə diqqəti daha da artacaq"*

Şəkinin Ümumdünya İrs Siyahısına daxil edilməsi tək ölkənin, onun mədəniyyətinin tanıdılması baxımından əhəmiyyətli deyil, eyni zamanda, iqtisadiyyatın, turizmin inkişafına müsbət təsir göstərən amillərdən biri olacaq.

Şəkinin Ümumdünya İrs Siyahısına salınması ilə bütün dünya ölkələri Azərbaycanın tarixi şəhəri olan Şəki haqqında məlumatlı olacaqlar. Beləliklə, səyahətsevərlər tarixi məkanı görmək üçün Şəkiyə üz tutacaqlar. Bununla da Azərbaycan turizminin inkişafında Şəkinin əvəzsiz rolu olacaq.

**Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu hadisə ölkənin mədəni həyatında təqdirəlayiq hal olmaqla bərabər, turizm sektorunun inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir:** "Turizm şirkətləri tərəfindən həyata keçirilən bir sıra turlar çərçivəsində regionlarımızda yerləşən və UNESCO-nun Dünya İrs Siyahısına daxil edilən mədəni-tarixi məkanlara səyahətlər təşkil edilir. Həmin səyahətlərə xarici turistlər çox böyük maraq göstərirlər. Bir çox Avropa ölkələrində məhz UNESCO-nun Dünya İrs Siyahısına daxil olan məkanlara səyahət marşrutu üzrə gəlmək istəyən xeyli sayda insan var. Bu baxımdan, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı", "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESCO-nun Dünya İrs Siyahısında, eyni zamanda, xalqımızın 13 nümunəsinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısında yer alması Azərbaycana gələn turistlərin sayının artmasına əhəmiyyətli təsir göstərəcək, turizmin inkişafına böyük töhfələr verəcək".

Həmsöhbətimiz onu da vurğuladı ki, Şəki özünün tarixi-mədəni irsi və turistik əhəmiyyəti baxımından həmişə diqqət mərkəzində olub: "Zənnimcə, Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarından sonra turistlərin həmin bölgəyə diqqəti daha da artacaq".

R.Quliyev hesab edir ki, Şəkidə bölgənin tarixini əks etdirəcək əlavə işlərin görülməsinə ehtiyac var. Məsələn, həmin əraziyə 3D virtual səyahət formatında layihələr nəzərdə tutula bilər.

**Azərbaycan Turizm Assosiasiyasının (AzTA) rəhbəri Nahid Bağırov bildirdi ki, Şəkinin Ümumdünya İrs Siyahısına salınması qərarı adıçəkilən şəhərin bütün dünyada tanınmasına səbəb olacaq:** "Bu hadisə ölkəmizin tanıdılması, eyni zamanda, mədəniyyət və turizm sahəsi üçün əhəmiyyətlidir. Ümumiyyətlə, Şəki hər zaman turistlər üçün maraqlı məkan olub. Məlum qərar sayəsində Şəki dünyada tanınacaq. Xarici vətəndaşlar bu abidədən xəbərdar olacaq və onların Azərbaycana marağı artacaq. Fikrimcə, Dövlət Turizm Agentliyi Şəki Xan Sarayı ilə bağlı müəyyən addımlar atacaq".

Həmsöhbətimiz qeyd etdi ki, bu qərardan sonra nəinki Şəkiyə, ümumiyyətlə, ölkəmizə gələcək turistlərin sayı birəbeş artacaq: "Tarixi mədəniyyət abidələri turizmin inkişafına təsir göstərən, eyni zamanda, ölkənin turistlər üçün cəlbedici olmasını şərtləndirən mühüm amillərdəndir. Nəzərə almaq lazımdır ki, istənilən ölkəyə səyahət edən turist həmin ölkənin tarixinə, yaşayış tərzini əks etdirən maddi mədəniyyət nümunələrinə maraq göstərir. Öz növbəsində, hər bir ölkə qədimliyini dünyaya təqdim etmək üçün mədəni irs nümunələrindən faydalanmış olur. Turizm də ölkənin mədəni irsinin dünyaya tanıdılmasında bir vasitədir. Şəki Xan Sarayının UNESCO-nun Ümumdünya İrs Siyahısına salınması turistlərin Azərbaycana diqqətini cəlb edəcək və onlar abidələrimiz, tariximiz barədə məlumat əldə edəcəklər.

Azərbaycana gələn turistlər daha da çox qalacaqlar. Çünki UNESCO mədəni irsinə daxil olan abidələrə səfər etmək üçün əvvəl bir gün bəs edirdi, amma turistlərin Şəkiyə getməsi üçün üç-dörd saat vaxt lazımdır. Artıq turizm şirkətləri, istər-istəməz, Şəki turunu öz proqramlarına daxil edəcəklər və orada UNESCO irsinə daxil olan Şəki Xan Sarayı yazılacaq və turist bu proqramı görən zaman oranı görmək istəyəcək".

***Günel CƏLİLOVA***

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

**İnsan həyatını əhatə edən dəyərlər sistemində dinin rolu hər zaman üstün olub. Ümumiyyətlə, dini inanc istənilən tarixi dövrdə hər bir cəmiyyətin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz hissəsi olmaqla, onun bir növ istiqamətverici və hərəkətverici qüvvəsi kimi çıxış edib. O üzdən, hansı təriqətin üzvü olmasından asılı olmayaraq, hər kəsin dininə onun konstitusiyası kimi yanaşmaq lazımdır.**

# Din və media...

## Doğru dərk edildiyi zaman sülhün təminatçısıdır din...



Faktdır ki, din insanlar tərəfindən doğru dərk edildiyi zaman hətta sülhün təminatçısı rolunda çıxış edir. Konkret İslam dininə bu kontekstdən yanaşdıqda, onun ən humanist din kimi qəbul olunmasının kökündə məhz bu dəyərlər dayandığı şəksizdir. Lakin təəssüf ki, yaşadığımız mürəkkəb kataklizmlər dövründə, xüsusilə "ərəb baharı"nın başlaması ilə Orta Şərq dövlətlərindən böyük bir qaçqınlar ordusunun Avropaya üz tutması beynəlxalq mediada məqsədli şəkildə islamofobiya meylləri, radikal terror təşkilatlarının adının İslamla birgə çəkilməsi, İslam daxilindəki məzhəb problemlərinin qabardılması kimi məsələlər meydana gəldi. Üstəlik, Orta Şərqdə bəlli qüvvələr tərəfindən məqsədli şəkildə yaradılan İŞİD (Ərəb Şam Dövləti), "Boko haram" və digər bu kimi terror təşkilatlarının adının İslam dini ilə bağlanması əslində sadə insanlar arasında qorxu yaymaqla bir sıra ölkələrin daxilində xaos yaratmaq və beləliklə də bu ölkələrin müstəmləkə halına salınması məqsədinə hesablanmışdı və təbii ki, atılan bu addımlar İslamın əsl mahiyyətindən çox-çox uzaq idi. Lakin nə yazıq ki, bu məkrli plan baş tutdu və toruna hətta inanclı insanlar da sala bildi. Halbuki, İslamı olduğu kimi dərk edib, onun bütün tələblərini yerinə yetirən şəxs heç bir halda digərinin canına və ya malına qəsd etməz, özünün olmayana (harama) sahiblənməz, intihara qalxmaz, yalan danışmaz, qiybət etməz və ən əsası, başqa dinlərin mənsublarına əsla düşmən münasibəti bəsləməz ki, adıçəkilən terror təşkilatları haqqında bunların heç birini demək olmaz.

### Azərbaycan dövlətçiliyinin əsas təməl prinsiplərindən biri - dini dözümlülük...

İslamın bizə təlqin etdiyi dəyərlər isə müasir dövrümüzdə çox ciddi problem olan mehriban qonşuluq və dinc yanaşı yaşama prinsiplərinə birbaşa cavab verən zəruri şərtlərdir. Elə Azərbaycan dövlətçiliyinin əsas təməl prinsiplərindən hesab olunan dini dözümlülük, tolerantlıq konsepsiyasının da öz mayasını məhz bu şərtlərdən aldığı aşkardır. Bir çox millətlərin kompakt yaşadığı Azərbaycan kimi ölkələrdə əslində bu xətt həm də stabilliyin və təhlükəsizliyin qarantı kimi çıxış edir. O üzdən Azərbaycanın yaratdığı din-dövlət modeli digər ölkələrdə də təqdir olunur, nümunə olaraq göstərilir. Bütün bunların kökündə isə ölkənin sülhsevər siyasəti, qonşularla dinc yanaşı yaşamaq prinsiplərinə sadiqliyi və stabil, təhlükəsiz ölkə imicini qoruyub saxlamaq əzmi durur.

Faktdır ki, bu gün dünyanın bir çox ölkələrində məhz din adından istifadə olunaraq terror aktları, qanlı qırğınlar törədilir və təəssüflər olsun ki, bir çox hallarda bu olaylar məhz İslam adı ilə bağladılmağa çalışılır. Halbuki, İslam dini cana Allahın əmanəti kimi baxır və əcəlin yalnız Onun əmrilə gerçəkləşə biləcəyini təlqin edir. Bunu orta dini biliyi olan insanlar çox yaxşı dərk edir və o səbəbdən də bu istiqamətdə hər hansı provokasiyaya uymur. Lakin təəssüflə qeyd etməliyik ki, günümüzdə hələ də xurafata meyl edənlər tapılır və beləl əri çox asanlıqla din pərdəsi altında pozucu fəaliyyət göstərən təmayüllələrin toruna düşərək özü özünü məhvə sürükləyir. Dediklərimizə konkret misal kimi ötən illərdə dünyanı lərzəyə salan, yuxarıda da adını çəkdiyimiz İŞİD təşkilatını göstərə bilərik. Adını müqəddəs İslam dini ilə bağlayaraq "xəlifəliyini" elan edən bu təşkilatın son bir neçə ildə necə qırğınlar törətdiyi, neçə-neçə şəhər və kəndləri viran qoyduğu, milyonlarla dinc insanı yurd-yuvasından didərgin saldığı günümüzün acı reallıqlarıdır. Və o da faktdır ki, bu təşkilatın üzvlər toplamaq üçün vaxtaşırı İnternet üzərindən etdiyi çağırışlara az qala bütün dünya ölkələrindən və nə yazıq ki, Azərbaycandan da gedənlər oldu. Bu qurbanların gedərkən ailələrini, kiçik yaşlı uşaqlarını özləri ilə götürməsi isə ayrı bir faciə idi və Azərbaycan dövləti duruma çox operativ şəkildə müdaxilə etməklə təzliklə bu hallara son qoymağı bacardı. Belə ki, Prezident İlham Əliyevin İŞİD sıralarında bədnam fəaliyyətin ardından ölkəyə qayıdanların məsuliyyətə cəlb olunacağı barədə imzaladığı sərəncam bu təmayülün qarşısının alınmasında əhəmiyyətli rol oynadı. Bununla neçə-neçə ailələr yad ölkədə qanlı qırğının qurbanı olmaqdan qurtuldu. Üstəlik, ölkədən gedib İŞİD sıralarında məhv edilən həmvətənlərimizin günahsız ailə üzvləri də dövlətin qayğısından kənarda qalmadı, Azərbaycan dövləti uzun diplomatik prosedurları keçərək günahsız körpələrin ölkəyə gətirilib yaxınlarına təhvil verilməsinə nail oldu.

### Radikal dini təmayüllərin ölkə içində qarışıqlıq salmaq cəhdləri əleyhinə medianın rolu...

Din adından istifadə mövzusunda danışarkən radikal dini təmayüllərin ölkə içində qarışıqlıq salmaq cəhdlərini də yaddan çıxarmamalıyıq. Məlum olduğu kimi, yaxın illərdə belə təmayüllərin uzantıları Bakının "iki addımlığında" - Nardaran qəsəbəsində də kök salmağa cəhd etmişdi. Azərbaycanın hüquq-mühafizə orqanlarının həmin qüvvələr ətrafında keçirdiyi genişmiqyaslı əməliyyat nəticəsində dilində Allah kəlamı, əlində silah (!) neçə-neçə əslində İslamın əsl mahiyyətindən xəbərsiz insanları qaragüruhçu kütləyə çevirib ondan manipulyasiya vasitəsi kimi istifadə etmək istəyən şəxs ifşa olundu. Elə medianın həmin hadisələr barəsində yaydığı səhih məlumatlar və hadisələrlə bağlı verilən şərhlər ölkədə dini maarifləndirmənin bir nüansı sayılmalıdır. Eyni sözləri məlum "Gəncə hadisələri" haqqında da demək olar və hadisələrin sonrakı inkişafı əslində bu qüvvələrin eyni mərkəzdən idarə olunduğunu meydana çıxardı. Bu kontekstdə baş verənlər isə bir acı gerçəyi ortaya qoydu: insanlarımız din pərdəsi altında cinayətkar fəaliyyət göstərən şəbəkələrin toruna düşürsə, deməli, ölkədə ideoloji və maarifləndirmə işi istənilən səviyyədə getmir və ciddi islahatlara ehtiyac var. Lakin bu o demək deyil ki, məsuliyyət yalnız müvafiq dövlət qurumlarının üzərinə düşməlidir. Bu işdə media da, bütövlükdə cəmiyyət də eyni dərəcədə məsuliyyət daşıyır. Elə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də məhz bu səbəbdən sözügedən istiqamətdə apardığı məqsədyönlü fəaliyyətini media qurumları ilə koordinasiya etməkdə maraqlı tərəf kimi çıxış edir. Çünki media vasitələri bu fəaliyyətin geniş işıqlandırılmasında iştirak etməklə ölkədə dini maarifləndirmə işinin daha səmərəli təşkil olunmasına yardımçı olmaq baxımından ümumi işə öz töhfəsini verir. Təsadüfi deyil ki, son illər Azərbaycan Mətbuat Şurası ilə Dini İşlər üzrə Dövlət Komitəsi bir sıra birgə tədbirlərin keçirilməsinə nail olub. Bu tədbirlərin əsas məqsədi isə qloballaşan dünyamızda din pərdəsi altında baş verən təhlükəli hallara qarşı ölkədə maarifləndirici tədbirlərin daha geniş spektri əhatə etməsi, beləliklə də Azərbaycandakı bugünkü stabillik və tolerant mühitin təhlükəsizliyinin təmin olunmasına töhfə verməkdir. Bu tədbirlərin ana xəttini ölkəmizdə milli-mənəvi və dini dəyərlərimizin təbliğ edilməsində, dinin ictimaiyyətə düzgün formada, mahiyyəti üzrə çatdırılmasında, eyni zamanda dini radikalizm, terrorizm və ekstremizmə qarşı mübarizədə media təmsilçilərinin üzərinə düşən vəzifələrin təşviqi təşkil edir, eyni zamanda ideoloji təhlükəsizlikdə medianın oynadığı böyük rol diqqətə çatdırılır. Belə tədbirlərin birində DQİDK-nın sədri Mübariz Qurbanlı çox incə bir nüansa da diqqət çəkərək deyib ki, media bu kimi həssas məsələlərdə təhrifə yol verməməli, hansısa radikal fikirləri qabartmaqla, onun cəmiyyətdə yayılmasına imkan yaratmamalıdır. Çünki məlum həqiqətdir ki, dini inanc insanların ən həssas yeridir və tarixən din amilindən inanclı insanların "beyninin yuyulması" məqsədilə istifadə olunub. Səbəb də odur ki, cəhalətdə olan belə insanları idarə etmək daha rahat olur. Elə günümüzdə bir sıra ölkələrdə kamikadzelərin yetişdirilməsi, "cənnət" vədi ilə aldadılan belələrinin üzərinə bomba bağlayıb insanların gur olduğu yerlərdə özünü partlatması bunun əlaməti deyilmi?

### Dini maarifləndirmə proseslərində sektalar mövzusu...

Dini maarifləndirmə işinin təşkilindən danışarkən Azərbaycanda fəaliyyət göstərən müxtəlif adda dini sektalar da gözardı edilməməlidir. Məlumdur ki, bəlkə də dünyanın ən tolerant ölkəsi olan Azərbaycanın qanunvericiliyi burada dövlət qeydiyyatından və müvafiq prosedurdan keçdikdən sonra heç bir dini sektaya qanun çərçivəsində fəaliyyət göstərməyi qadağan etmir. Lakin bu sektaların heç də hamısı işini qanun çərçivəsində qurmur və bir çox hallarda sadə əhalini müxtəlif vasitələrlə tora salmağa çalışır. DQİDK-nın sədri Mübariz Qurbanlı deyir ki, ölkəmizdə 909 dini icma dövlət qeydiyyatından keçib və bu şəraitdə din xadimlərimizin, ilahiyyatçılarımızın, dini icmalarımızın üzərinə çox böyük vəzifələr düşsə də, media, xüsusilə sosial media dinimizin gözəlliklərini, insanpərvər dəyərlərini, həmrəyliyə və birliyə çağıran xüsusiyyətlərini cəmiyyətə çatdırmaqda aktivlik nümayiş etdirməlidir. Lakin fikrimizcə, bunun üçün birinci növbədə media mənsublarının özləri həqiqi islamı dərk etməlidir ki, aldığı hər hansı informasiyanı təhrif etmədən, mahiyyəti üzrə təqdim etməklə ölkədəki islami maarifləndirmə işinə öz töhfəsini versin. Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmər xanım Cavadlı bu məsələnin çözümünü dövlət təhsil müəssisələrində dini bilikləri ehtiva edən fənlərin tədris olunmasında görür. Jurnalistlərin, ümumiyyətlə bütün cəmiyyətin düzgün dini biliklərə sahib olması üçün bunun önəminə diqqət çəkən Qəmər xanım deyir ki, dini mühitin zənginləşdirilməsi istiqamətində bu gün Azərbaycanda dövlət səviyyəsində işlər görülür və dövlət bu sahəyə hər cür dəstək verir. Lakin xanım Cavadlı haqlı olaraq bildirir ki, ideoloji işi birtərəfli qaydada aparmaq olmaz, buna bütövlükdə cəmiyyət dəstək verməlidir.

### Mətbuat Şurası ilə DQİDK-nin birgə fəaliyyəti, perspektivlər...

AMEA Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə isə bu gün dini ideologiyanın Qərbin və Şərqin çox ciddi təsirlərinə məruz qalmasından narahatdır və bu təsir vasitələrindən biri, hətta birincisi kimi sosial medianı qeyd edir. Bu kontekstdə medianın, sosial medianın və elmin roluna toxunan İ.Məmmədzadə bildirir ki, hər bir ölkədə və bütövlükdə dünyada baş verən hadisələr cəmiyyətə məhz media vasitəsilə təqdim olunur ki, bütün bu məqamlar mətbuatın gücünü dəyərləndirmək məsələsini günbəgün aktuallaşdırmaqla, onu daha əhəmiyyətli müstəviyə çıxarır. Bu fikirlərin davamı olaraq demək olar ki, Azərbaycan coğrafi mövqe baxımından bu iki sivilizasiya arasında yerləşdiyindən, istər Qərbin, istərsə də Şərqin təsirlərinə çox həssas bir durumdadır və Azərbaycan dövlətinin bu istiqamətdə məqsədyönlü siyasət yeritməsi bu təmayüllərin ölkəyə nüfuz etməsini ciddi şəkildə əngəlləyə bilir. Elə bu səbəbdəndir ki, bu gün müvafiq Dövlət Komitəsi bu təsirlərin neytrallaşdırılması yönündə gərgin iş aparmaqla yanaşı, bu kontekstdə mətbuatın rolunu da yüksək qiymətləndirir, media qurumları ilə birgə maarifləndirici işin təşkilinə xüsusi önəm verir. Deyilən fikirləri Mətbuat Şurasının sədri Əflatun Amaşov da bölüşür. Bu gün Azərbaycan mediasının kifayət qədər inkişaf etdiyini və baş verən hadisələrə milli maraqlar nöqteyi-nəzərindən yanaşdığını xüsusi qeyd edən MŞ sədri DQİDK ilə birgə tədbirlərin keçirilməsinə məhz bu üzdən böyük önəm verdiklərini bildirir.

Bütün bu deyilənlərdən çıxan nəticə isə ondan ibarətdir ki, milli mediamız dövlətçilik maraqlarına sadiqliyini bundan sonra da ardıcıl nümayiş etdirməli, dövlət-din və cəmiyyət-din münasibətlərində təkcə informasiya daşıyıcısı kimi deyil, həm də aparıcı rollardan birinin ifaçısı kimi çıxış etməlidir. Çünki bu, dövrün tələbidir.

***Samirə SƏFƏROVA***

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan Mətbuat Şurasının 22 iyul Milli Mətbuat Günü münasibətilə "Din və media" mövzusunda keçirdiyi birgə müsabiqəyə təqdim olunur.**

# Qaçaqmal linzalar Bakı klinikalarında "at oynadır"...

**Son zamanlar xanımlar arasında rəngli və optik linzalara tələbat artıb. Belə ki, linzalar həm gözlərinin rəngini dəyişmək istəyən xanımlar üçün, həm də eynək taxmaq istəməyən və bunu özünə kompleks edən görmə qabiliyyəti zəif olan insanlar üçün əvəzsiz vasitə hesab olunur.**



Lakin mütəxəssislər bildirirlər ki, linzaların müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də var. Belə ki, keyfiyyətsiz və ya istifadə qaydalarına düzgün riayət olunmayan linzalar gözlərdə müxtəlif infeksiyaların yaranmasına, görmə qabiliyyətinin itirilməsinə səbəb olur.

Linzalarla bağlı problemlər onların əsasən keyfiyyətsiz və saxta variantlarının da bazarda yer alması ilə izah olunur. Belə ki, linzalar və onları təmizləmək üçün istifadə olunan göz suları artıq optikalarla yanaşı, qızğın alver gedən bazarlardakı piştaxtalarda da satılır.

### *Eyyub Hüseynov: "Göz əməliyyatlarında istifadə olunan göz protezlərinin-linzaların qaçaqmal yolu ilə gətirilən partiyalarından bəzi göz klinikalarında geniş istifadə olunur"*

Keyfiyyətsiz linzalar tək səyyar formada deyil, eyni zamanda, klinikalarda da satılır. Məlumatlara görə, bəzi klinikalara Türkiyədən qaçaqmalçılıq yolu ilə linzalar gətirilir.

"Azad İstehlakçılar" İctimai Birliyi (AİİB) əhaliyə göz protezlərinin (linzaların) qaçaqmal variantlarından ehtiyatlı olmaları ilə bağlı xəbərdarlıq edib. **Birliyin sədri Eyyub Hüseynov bizimlə söhbətində qeyd etdi ki, göz əməliyyatlarında istifadə olunan göz protezlərinin-linzaların qaçaqmal yolu ilə gətirilən partiyalarından bəzi göz klinikalarında geniş istifadə olunur:** "Bir çox şirkətin istehsal etdiyi, xüsusən "Alcon" şirkətinin "Acry sof" göz protezləri Türkiyədən qanunsuz yollarla ölkəmizə gətirilir.

*"...qaçaqmalçılarla əlbir olan həkimlərin sayəsində..."*

Məlumatların təhlili göstərir ki, bu mallar heç bir gömrük sənədləşdirilməsi aparılmadan, sertifikatlaşdırılmadan, Səhiyyə Nazirliyinin idxal icazəsi olmadan bazara daxil olur".

Ekspertin sözlərinə görə, qeyd olunan mallar standartların tələbinə cavab verməyən bir şəraitdə saxlanır, daşınır, şübhəsiz ki, dövlətimizin mövcud qanunvericiliyini pozmaqla bərabər, qaçaqmalçılarla əlbir olan həkimlərin sayəsində istehlakçıların sağlamlığını da risk altında qoyur: **"Bu linzaların bir hissəsi Türkiyədə tibbi sığorta xidmətindən sui-istifadə edən şəxslərin dəstəyilə ölkəmizə qutusuz, yəni açılmış şəkildə daşınır. Qutuya qablaşdırılmış qaçaqmal linzalar Türkiyə üçün nəzərdə tutulduğundan, orijinal markalanmanın üstünə türk dilində stiker yapışdırılır".**

*Günel CƏLİLOVA*

# Hacı Əbdül jurnalistlərlə yeni layihə ilə sükutu pozur - hədiyyəlik avtomobillər "tövbə müqabilində"...

**Tanınmış din xadimi, "Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül Əbdülov jurnalistlərə avtomobil hədiyyə edəcək. Bu barədə Hacı Əbdül Əbdülov özü məlumat verib. Din xadimi bildirib ki, avtomobillər tövbə etməyi ən çox təbliğ edən jurnalistlərə təqdim olunacaq:**



"Jurnalistlərin təbliğat gücü böyükdür. Onların sayəsində tövbə edən insanlarımızın sayı artır. İnşallah, avtomobilləri 2020-ci ilin Milli Mətbuat Günü ərəfəsində Azərbaycanın peşəkar jurnalistlərinə hədiyyə edəcəyik. Təbii ki, mükafatlar tövbə etməyi ən çox təbliğ edən jurnalistlərə veriləcək".

Hacı Əbdül Əbdülov əlavə edib ki, avtomobillər "Xəzər" avtomobil zavodunun istehsalı olan maşınlar ola bilər. O bildirib ki, "Tövbə"nin bu qədər vəsaiti yoxdur: "Buna görə də qərara almışıq ki, bank hesabı açılsın və xalqın, xeyriyyəçi insanların gücü sayəsində mükafat fondunu formalaşdıraq. Artıq bu təşəbbüsümüzü bildikdən sonra bir sıra xeyriyyəçilər və şirkət rəhbərləri belə xeyirxah iş üçün mümkün qədər vəsait köçürəcəklərini vəd ediblər.

Müsabiqə mövzusunun konkretləşdirilməsi, münsiflər heyətinin formalaşdırılması işi Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədri, hörmətli akademik Vasim Məmmədəliyevə həvalə edilib. Ancaq tərəfsizlik olsun deyə, "Tövbə"dən heç kəs münsiflər heyətinə qatılmayacaq. Yəni tamamilə neytral, obyektiv mütəxəssislər olacaq həmin heyətdə".

### *Azər Həsrət: "Maraqlıdır, hansı gerçək jurnalist belə bir mükafata əyiləcək?"*

Hacı Əbdülün bu təşəbbüsünə media ekspertlərinin münasibəti necədir?

**Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, olduqca maraqlı və düşündürücü bir mövzudur:** "Hər yerindən duran jurnalistlər üçün mükafat təyin edib və bunun müqabilində istədiyi yazını yazdırmağa istiqamətləndirmək istəyəcəksə, onda biz qələmi atıb başqa işlə məşğul olmalıyıq. Jurnalistikanın tövbə ilə nə əlaqəsi ola bilər? Bu nə təbliğatdır, nə üçün aparılır?

Maraqlıdır, hansı gerçək jurnalist belə bir mükafata əyiləcək? Mən düşünmürəm ki, normal jurnalistlər belə bir mükafatı əldə etmək üçün çalışsınlar. Dinə sayğımız var, bu öz yerində.

Amma kiminsə bundan istifadə edib, jurnalistika ilə manipulyasiya etməsi yolverilməzdir. Şəxsən mən bir jurnalist kimi bundan çox narahat oldum. Din sərbəst seçimdir, bu hər kəsin öz azadlığına buraxılır. Bizim dövlət vicdan azadlığına böyük önəm verir. Kim istər, dinə gələr, kim istər ondan dönər. Heç kimi nəyəsə məcbur etmək olmaz. Konkret dini təbliğat aparacaq adamlara mükafat vəd edilməsi isə dünyəvi quruluşda yolverilməz bir faktordur. Aydın düşünən insanlarımız, dəyərli ziyalılarımız bu məsələyə sərt reaksiya verməlidirlər. Hacı Əbdül hansısa xeyirxahlıq etmək istəyirsə, qoy bunu etsin. Ehtiyacı olan ailələrə yardım göstərsin, hansısa tələbənin təhsil haqqını ödəsin, bir xəstəyə əl tutsun. Yoxsa onun diqtə etdiyi dəyərləri təbliğ edən jurnalistləri maşınla şirnikləndirmək çox ayıb bir məsələdir. Dünyəvi dövlət üçün xarakterik hal deyil. Orada Vasim Məmmədəliyevin də adını çəkir ki, münsifliyi o edəcək. Ümid edirəm ki, dəyərli ziyalımız bu təşəbbüsün doğru olmadığını Hacı Əbdülə izah edəcək.

Qoy bizim fikirlərimiz xeyirxahlığa, dinə qarşı kimi dəyərləndirilməsin. Bu cür incə mövzular ətrafında jurnalistika ilə manevrlər etmək olmaz. Bu, bizim peşəmizə saygısızlıqdır. Həmkarlarımı bu məsələdə məsafəli davranmağa çağırıram".

*Məhəmmədəli QƏRİBLİ*

**Oxuyub öyrənmək müqəddəs kitabımızda da vacib buyurulub. Bu da onu göstərir ki, kitab tarixən bir mənəvi dəyər, bilik mənbəyi kimi insanların həyatında mühüm yer tutub. Azərbaycan insanı da tarixən oxuyub öyrənməyə, kitablarla təmasda olmağa üstünlük verib.**

# Bakı metrosunda sərnişinlərin kitab oxumaq adəti qayıdır



## Qiymət Məhərrəmli: "Bu gün metroda gedərkən heç olmasa 10 nəfərdən birinin əlində kitab görürsən, bu, insana xoş təsir göstərir"

Vaxtilə Azərbaycan keçmiş ittifaq respublikaları arasında ən çox mütailə edən respublika kimi tanınıb. Əvvəlki dövrlərdə insanların kitaba tələbatı, marağı o qədər çox idi ki, ictimai nəqliyyatda, avtobusda, tramvayda, trolleybusda, metroda belə mutaliə etməkdən əl çəkmirdilər. Hətta belə bir fikir var ki, uzun yol gedərkən mütaliə ilə məşğul olmaq yolu qısaldır.

Çox təəssüflər olsun ki, son 20-25 ildə Azərbaycanda insanların mütaliəyə həvəsi get-gedə öləziməyə başladı. Uzun illər mütaliədən kənarda qalan Azərbaycan insanı bununla çox şey itirdi. Ən azından, bu amil bizim insanların intellektual səviyyəsinin zəifləməsinə səbəb oldu.

Son illər insanlarımızın kitaba qayıdışında bir irəliləmə var və artıq avtobuslarda, metro qatarlarında nəinki yaşlı və orta nəslin, eləcə də gənclərin əlində kitab görürük. Bu da onu göstərir ki, artıq cəmiyyət intellektual səviyyəsini yüksəltmək yolunu seçib.

Başqa nəqliyyat vasitələrindən fərqli olaraq, kitab oxuyanlara Bakı metropolitenində daha çox rast gəlirik. Gənclər mobil telefondan, internetdən ayrılaraq kitaba üz tuturlar.

**Filologiya üzrə fəlsəfə doktoru, şairə Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, insanların kitaba qayıdışında Bakı Metropoliteninin həyata keçirdiyi "Metroda oxu" adlı aksiyanın da faydası olub.** O qeyd etdi ki, bu sosial aksiya çərçivəsində metropolitenin bütün stansiyalarına kitabı təbliğ edən plakatlar, reklam lövhələri yerləşdirilib. Bunun da insanlara müsbət təsir etdiyini deyən Q.Məhərrəmli hesab edir ki, kitabı daha çox təbliğ etmək lazmdır. "Mütaliə insan həyatında, onun dünyagörüşünün artmasında, intellektual səviyyəsinin qalxmasında mühüm bir amildir. Bir vaxtlar Azərbaycanda kəskin oxucu böhranı yaranmışdı və insanlar kitaba elə də meyl göstərmirdilər. Bu da onunla bağlı idi ki, kitab təbliğatı çox aşağı düşmüşdü. Paytaxtdakı kitab mağazalarının

*"Bu gün metro sərnişinlərinin əlində yalnız Azərbaycan dilində deyil, digər dillərdə də kitablar görürük"*

böyük əksəriyyəti bağlanmışdı, onlara məxsus olan binalarda kafe, restoran fəaliyyət göstərirdi. Kitabla bağlı bütün təsisatların ləğv edilməsi insanların kitabdan soyumasına səbəb oldu. Son illər dövlətin, Mədəniyyət Nazirliyinin kitabı təbliğ etməsi, bu sahəyə xüsusi diqqət yetirməsi insanların kitaba qayıdışını şərtləndirdi. Bu gün metroda gedərkən heç olmasa 10 nəfərdən birinin əlində kitab görürsən, bu, insana xoş təsir göstərir. Fikirləşirsən ki, artıq gənclik kitaba qayıdıb. Bilirsiniz, internet resursları, elektron oxu kitabın insana yaşatdığı zövqü yaşada bilməz. Yeri gəlmişkən onu da deyim ki, Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin "Metroda oxu" sosial aksiyası da insanlarda mütaliəyə həvəs yaratdı. Bir neçə stansiya gedən adamın məşğuliyyəti olmasa darıxır, yol ona uzaq görünür, ancaq yol gedərkən kitab oxumaq isə vaxtın necə keçdiyini hiss etdirmir. İndi sərnişinlərin əlində kitab görürsən, qəzet görürsən. Bu gün metro sərnişinlərinin əlində yalnız Azərbaycan dilində deyil, digər dillərdə də kitablar görürük. Gənclərimiz rus dilində, ingilis dilində, ərəb, fransız dillərində kitablar oxuyurlar".

**Q.Məhərrəmli onu da qeyd etdi ki, bu gün metro stansiyalarında kitab mağazalarının yaradılmasına da ehtiyac var. Çünki metrodan istifadə edən sərnişinlər bu mağazalardan istədikləri kitabları ala bilərlər. Onun sözlərinə görə, bəzi metrostansiyaların yaxınlığında açıq səma altında kitab satışı həyata keçirilir. Bunun da mütaliənin artmasına müsbət təsir etdiyini deyən Q.Məhərrəmli hesab edir ki, oxucuları daha kütləvi şəkildə kitaba qaytarmaq üçün maarifçilik işinə yaradıcı təşkilatlar, kitab mağazaları, eləcə də vətəndaş cəmiyyəti qoşulmalıdır.**

*İradə SARIYEVA*

**İstehlakçıların istifadə etdikləri müxtəlif qida məhsullarından zəhərlənmə hallarının baş verməsi insanların qidalanmaya xüsusi ehtiyatla yanaşmasına səbəb olub. Əvvəllər insanlar supermarketlərdə satılan məhsulların keyfiyyətli qablaşdırılmasına əhəmiyyət verirdisə, indi onun daxili keyfiyyətinə önəm verirlər.**

# "Bizim süfrə" nədir, "Bizim sufre" nədir - saxta ketçup?




## Viktoriya Əliyeva: "Bizim süfrə" də, "Bizim sufre" də "Azərsun" Holdinq tərəfindən istehsal olunur"

Bu gün istənilən supermarketdə bazarlıq edən vətəndaş çeşidli məhsulların hansı firmaya, şirkətə aid olduğunu da saf-çürük edir. Bəzi şirkətlərə məxsus məhsulların üzərində onların adlarının hansı şəkildə yazılmasına da istehlakçılar diqqət yetirirlər.

Paytaxt mağazalarında, supermarketlərdə "Azərsun" Holdinqin istehsalı olan "Bizim süfrə" ketçupları da satılır. Oxucularımızdan biri bizimlə əlaqə saxlayaraq bildirdi ki, mağazalarda "Bizim süfrə" və "Bizim sufre" adlı eyni şirkətə məxsus olan ketçup satılır.

Bizə müraciət edən vətəndaşın dediyinə görə, "Bizim sufre" adı onlarda şübhə yaradıb. Alıcılar hesab edirlər ki, bu ad altında satışa çıxarılan ketçup məhsulu geydirmədir və hansısa qurama sex tərəfindən istehsal edilib.

**Vətəndaşın qarşılaşdığı məsələ ilə bağlı "Azərsun" Holdinqlə əlaqə saxladıq. Holdinqin müştəri xidmətinin əməkdaşı Viktoriya Əliyeva "Bakı-Xəbər"ə bildirdi ki, həm "Bizim süfrə", həm də "Bizim**

*"Bizim sufre" adı ilə istehsal edilən məhsullarımız xaricə ixrac olunan məhsullardır"*

**sufre" holdinqin istehsalıdır.** "Bu məsələyə aydınlıq gətirilməsinə görə bizim şirkətə müraciət etdiyiniz üçün sizə təşəkkür edirik. "Bizim süfrə" də, "Bizim sufre" də "Azərsun" Holdinq tərəfindən istehsal olunur.

"Bizim sufre" adı ilə istehsal edilən məhsullarımız xaricə ixrac olunan məhsullardır. Bu səbəbdən də onun üzəri bu şəkildə yazılır. Biz onları həm də yerli bazarda satışa çıxarırıq. "Bizim sufre" saxta məhsul deyil və müştərilər bu məhsulu rahatlıqla alıb istifadə edə bilərlər".

**"Bizim sufre" eyni zamanda da yerli bazarda satılır. Narahatlığa səbəb yoxdur və məhsulun keyfiyyətinə alıcıların şübhəsi olmasın" - deyə qeyd edən V.Əliyevanın sözlərinə görə, ABŞ da daxil olmaqla, "Azərsun" Holdinqin "Bizim sufre" və digər məhsulları dünyanın 20-dən artıq ölkəsinə ixrac olunur.**

*İradə SARIYEVA*

# Restoranlar səs tonu və menyu sərbəstliyi normalarına qəti uyğunlaşmaq istəmir...

**Toya adətən dincəlmək, əylənmək üçün gedilir. Ancaq bəzi şadlıq evlərində səs sistemi o qədər güclü olur ki, əslində, orada keçirilən saatlar əzab-əziyyətə çevrilir. Şadlıq evlərində istifadə olunan səsin həcmi də standart kimi müəyyən edilsə də, bu da problemi birdəfəlik həll etməyə kifayət etmir.**



***İlqar Hüseynli:*** *"Restoran və şadlıq evləri bilərəkdən musiqini yüksək səslə səsləndirirlər ki, müştəri narahat olub həmin məkanı tez tərk etsin"*

Qeyd edək ki, bir neçə il öncə şadlıq evlərində səs gücü və süfrəyə təqdim edilən təamlarla bağlı standartlar müəyyən olundu. Həmin standartlara əsasən, şadlıq evlərinin akustikası ilə bağlı tələblərdə səs gücü maksimum 85 desibel olmalıdır. Ancaq reallıqda mütəxəssislər şadlıq evlərinin əksəriyyətində 200-300 desibel arasında səs gücündən istifadə olunduğunu bildirirlər.

Belə bir iddia səslənir ki, müştərinin tez bir zamanda şadlıq evi və ya restorandan getməsi, masanın üzərində yeyəcəklərin toxunulmaz qalması üçün səs yüksək tonla səsləndirilir.

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, restoran və şadlıq evləri bilərəkdən musiqini yüksək səslə səsləndirirlər ki, müştəri səsin yüksəkliyindən narahat olub həmin məkanı tez tərk etsin:** "Məkanlarda musiqinin səsini məqsədli şəkildə yüksək verirlər ki, insanlar səsin təsirindən bezsinlər. Bu hal əlavə qidanın qalmağına və yeni müştərilərin gəlməsinə şərait yaratmış olur. Yaxşı olar ki, aidiyyəti qurumlar restoran və ya şadlıq evlərində səsin yüksəkliyi ilə bağlı monitorinq keçirsinlər. Hansı iaşə obyektində səs normadan atıq səslənərsə, oranın sahibi qanunvericiliyin tələblərinə əsasən cəzalandırılmalıdır. Belə bir qayda tətbiq olunarsa, şadlıq evləri məcbur olub səs normalarına riayət edərlər".

*"Şadlıq evlərində müştərilərə standart menyunun təqdim olunması düzgün deyil"*

Həmsöhbətimiz onu da vurğuladı ki, bir neçə il öncə dövlət orqanları şadlıq evləri üçün standartlar hazırladı. Ancaq standartlara əməl edən olmadı. Yeməyin hazırlanması, saxlanması, akustikadan tutmuş, hər şey şadlıq evlərinin sahibləri tərəfindən həyata keçirilir: "Nəticədə istehlakçının orada heç bir hüququ qalmır. İstehlakçı tələb etsə belə, məsələn, desə ki, plovu birinci olaraq gətir, ona nail ola bilməyəcək. Hansı ki, istehlakçının seçim hüququ var və pulu verən də odur".

Həmsöhbətimiz onu da vurğuladı ki, bu gün toy yiyəsi şadlıq evi sahibinə toy üçün ödədiyi pulun qəbzini belə ala bilmir.

Ekspertin sözlərinə görə, şadlıq evlərində müştərilərə standart menyunun təqdim olunması düzgün deyil. Standartlara əsasən, toy yiyəsi və ya müştəri öz zövqünə uyğun menyu tərtib edə bilər: "Ancaq restoranlarda köhnə ənənə yenə davam edir. Müxtəlif çeşidli salatlar və digər soyuq qəlyanaltılar istehlakçılara təqdim olunur. Halbuki, bu fərqli olmalıdır. Ancaq bizdə bütün şadlıq evlərində eyni qayda tətbiq edilir.

***Günel CƏLİLOVA***

# Bələdiyyələrdə yeni idarə...

**Məişət zorakılığından əziyyət çəkən qadınlar üçün müxtəlif təşkilatların və ya dövlət qurumlarının nəzdində sığınacaq yaradılıb. Həmin sığınacaqlara sığınanlar məişət zorakılığının qurbanlarıdır. Bu günlərdə bələdiyyələrdə məişət zorakılığından zərər çəkmiş qadınlara ödənişsiz psixoloji və hüquqi yardım göstərilməsi üçün xüsusi şöbənin təşkil olunması da təklif olunub.**



***Fatimə Hacıbəyli:*** *"Bələdiyyələrin nəzdində zorakılığa məruz qalan qadınlar üçün xüsusi şöbələrin yaradılması daha məqsədəuyğundur"*

Bu barədə Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu media nümayəndələrinə açıqlamasında deyib. O qeyd edib ki, bir neçə il əvvəl Azərbaycanda "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edilib: "Biz buna görə bələdiyyələrdə otaqların ayrılmasını təklif edirik. Qadınlar öz problemləri, o cümlədən onların ailədə sıxışdırılması halları ilə əlaqədar həmin şöbələrə müraciət edə bilərlər". N.Cəfəroğlu qeyd edib ki, bələdiyyə orqanları bu yolla çətinliklərlə üzləşən qadınlara psixoloji, tibbi, hüquqi xarakterli problemlərin həllində kömək edə bilər.

Bələdiyyələrin nəzdində məişət zorakılığından əziyyət çəkən qadınlar üçün sığınacaq otaqlarının yaradılmasını ekspertlər tərəfindən müsbət qarşılanır. **"Vəfa" Sosial İctimai Problemlərə Dəstək İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bələdiyyələrin nəzdində məişət zorakılığından əziyyət çəkən qadınlar üçün xüsusi şöbənin yaradılması təqdirəlayiq haldır:** "Nəzərə almaq lazımdır ki, uzaq kənd yerlərində yaxınları tərəfindən zorakılığa məruz qalan qadın yerli icra hakimiyyətlərində fəaliyyət göstərən qadın şöbələrinə gedə bilmir. Bu səbəbdən də hər bir rayon bələdiyyəsində qadınlar üçün xüsusi sığınacaq mərkəzi yaradılması daha yaxşı olar".

*"Uzaq kənd yerlərində zorakılığa məruz qalan qadınlar yerli icra hakimiyyətlərində fəaliyyət göstərən qadın şöbələrinə gedə bilmədiyi üçün, bələdiyyələrin nəzdində xüsusi sığınacaq yaradılmalıdır"*

F.Hacıbəyli onu da vurğuladı ki, sığınacağın məqsədi təhlükəsizlikdir. Bu, ailələrdə ölümlərin sayını azaldacaq.

Sığınacaq reabilitasiyadır. Psixoloji, tibbi və hüquqi yardım deməkdir. Bu səbəbdən də bələdiyyələrin nəzdində zorakılığa məruz qalan qadınlar üçün xüsusi şöbələrin yaradılması daha məqsədəuyğundur".

***Günel CƏLİLOVA***

# "Azercell"in "Kabinetim" tətbiqi ilə nömrənizə nəzarət etmək artıq daha asandır




**Proqressiv ideyaların dəstəkçisi və təşəbbüskarı kimi tanınan "Azercell Telekom"un geniş çeşiddə məhsullar, xidmətlər və həllər bazasına malik olması onun ölkənin telekommunikasiya sahəsinin lideri mövqeyində qərarlaşmasına yardım edib.**

Şirkət yeni nəsil bağlantı erasında öz rəqəmsal həllərini daha da zənginləşdirərək, mobil tətbiqini abunəçilərin istifadəsinə verib. Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan çoxfunksional "Kabinetim" tətbiqini "App Store" və ya "Play Store"dan Azercell/Kabinetim açar sözünü axtarışa verməklə, ödənişsiz olaraq yükləmək mümkündür. Tətbiq istifadəçilərə nömrə xəttinin idarə edilməsi, balansa nəzarət, balans artırma, internet paketlərinin və rominq internet paketlərinin aktivləşdirilməsi, tarif paketinin dəyişdirilməsi və bir çox başqa imkanlar təqdim edir. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən "Kabinetim" tətbiqi istifadəçilərə ən yaxşı müştəri təcrübəsi bəxş etmək məqsədilə işlənib hazırlanıb.

Müasir texnologiyaların və biznes həllərin köməyilə insan həyatını asanlaşdırmağı hədəfləyən "Azercell" ilə rəqəmsal dünyanın yenilikləri indi daha əlçatandır.

"Azercell" "Kabinetim" tətbiqini yüklə və rahatlıqdan zövq al! Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

№ 120 (4018) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

10 İYUL 2019-cu il

www.baki-xeber.com

# Maştağada qoyunları oğurlayan qəribə yırtıcı peyda olub



**Maştağa sakinləri qəsəbənin Ləiş bağları ərazisində qeyri-adi heyvan tutublar. bu barədə "axar.az"a qəsəbə sakinləri məlumat verib.**

Bədən hissəsi yarasaya oxşayan tünd qəhvəyi rəngli heyvanı sakinlər bir neçə gün izləyəndən sonra tuta biliblər. Sakinlərin sözlərinə görə, qeyri-adi heyvanın çəkisi təxminən 40-45 kiloqrama qədərdir. Sakinlər bir neçə gün qəsəbədə qoyunların yoxa çıxmasından narahat olub. Əvvəlcə qoyunların oğurlandığını fikirləşən sakinlər daha sonra gecə boyunca yatmayaraq heyvanları izləyiblər. Nəticədə, belə bir heyvanın qoyunları oğurladığının şahidi olublar. Sakinlər heyvanı qovmaq üçün onun üstünə itləri açıb buraxsa da, itlər ona yaxınlaşa bilməyib. Bu səbəbdən sakinlər özləri qeyri-adi heyvanı zərərsizləşdirməyə çalışıb. Sakinlərə hücum etdiyindən onu öldürmək məcburiyyətində qalıblar. Sakinlər bildirir ki, heyvan qəribə səslər çıxarıb, ona hücum edən itlərin üstünə ilan kimi fısıldayıb: "İtlər çıxardığı səsə görə ona yaxınlaşa bilmədi. Tükürpədici səslər çıxarır.

Ulayırdı sanki. Birinci elə bildikki, yarasadı. Ancaq bu qədər böyük yarasa olmur və burada da belə heyvan görməmişik heç vaxt. Üzü də yarasaya oxşamır".

## Elan

Şəki şəhər sakini Rəhimov Nəriman Əhmədiyə oğlunun adına verilmiş əməkhaqqı kartı itdiyi üçün etibarsız sayılır.

Vəliyev Sabir İbadulla oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş M/V-000118 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kərimov Xanlar Qiyas oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Axundov Qabil Cəfər oğlunun adına, Gəncə şəhəri, Nizami RHK tərəfindən verilmiş M/V-058475 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Nəcəfova Raya Əli qızının adına, Şamaxı rayonu, Çuxuryurd kəndində yerləşən 0.12 ha torpağın 0222411 nömrəli çıxarışı və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Məmmədova Minaya Mustafa qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, S.Rüstəmov küçəsi, ev 52 A, mənzil 21, 22 ünvanlarının çıxarışı və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Tünzalə Səxavət qızına məxsus, Neftçala şəhəri, Maksim Qorki küçəsi 2 saylı ünvanda yerləşən 12 A saylı mənzilin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Salmanova Tamilla Muxtarovnaya məxsus, Bakı şəhəri, Sabunçu rayonu, Zabrat 2, istixana kombinatı, ev 34, mənzil 14 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

## Marsda metan yox olur?

**Amerikanın Mars hərəkət aparatının etdiyi təkrar ölçmə əməliyyatları, Marsda əvvəl qeydə alınmış, metanın yox olmasını və konsentrasiya qazının əvvəlki vəziyyətə qayıtması haqqında yeni göstəriciləri təqdim etmişdir.**



Bu haqda NASA xəbər vermişdir. "Deyerler.org" bildirir ki, məlumatda qeyd edilir: "Metanın miqdarı birdən-birə aşağı, milyardda birə enib. Bu miqdar, "Curiosity" Mars üzərində olan peykin qeyd etdiyi fon göstəricilərinə yaxındır. Metan üzərində araşdırma davam edir. Biz metanın Mars atmosferində vəziyyətini, dəyişkənliyini izləməkdə həmişəkindən daha çox maraqlıyıq", - deyə missiyanın əməkdaşlarından olan Aşvin Vasavada bildirmişdir. Qeyd edək ki, yaxın zamanlarda Nyu-York Tayms (The New York Times) qəzeti, NASA-nın "Curiosity" Mars hərəkət aparatının Mars üzərində həddindən artıq metanın əmələ gəlməsinin qeyd etməsi haqda xəbər vermişdir.

## Yeni robot uşaqlara proqramlaşdırmanı öyrədəcək

**Çinin "DJI" pilotsuz uçan aparatlar istehsalçısı "RoboMaster S1" adlı döyüş təlimi robotu hazırlayıb. "ICTnews" bildirir ki, 46 hissədən ibarət dəst kimi təqdim edilən robot quraşdırma və istismar üçün proqramlaşdırmanı öyrənməyi tələb edir.**

On dörd yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulan "RoboMaster S1" 4 təkərə malikdir və 13 km/s sürətlə hərəkət edir. Yuxarıda gel kürəciklər atan idarə olunan tank qülləsi yerləşir. Tankın infraqırmızı lüləsi də var. Göyərtə 31 ötürücü ilə təchiz olunub ki, onun da 6-sı döyüş zamanı hədəfə dəymənin aşkarlanması üçün nəzərdə tutulub. Quraşdırılmış kamera istifadəçilərə robotu xüsusi mobil əlavə vasitəsilə FPV rejimində idarə etməyə imkan verir, kompüter görmə sistemi isə aparata manevrləri aşkarlamağa və digər "RoboMaster S1" robotlarından siqnalları qəbul etməyə kömək edir. Robot, həmçinin "Follow Mode", jestlərin tanınması, digər "RoboMaster S1" robotlarının aşkarlanması, səslərin müəyyənləşdirilməsi, xətt və vizual naviqasiya markerləri üzrə hərəkət imkanı funksiyasına malikdir. Bundan başqa, robotu mobil əlavə vasitəsilə əllə idarə etmək mümkündür. Arxa paneldə enine-impuls modulyasiya portu (PWM) yerləşir. Müxtəlif funksiyaların proqramlaşdırılması üçün "Scratch 3.0" və "Python" dillərindən istifadə olunur. "RoboMaster S1" robotunun qiyməti 499 dollar təşkil edir.





**Qoç** - Bir çox problemlərin həllinə başlaya bilərsiniz. Daxili energetikanız sizə ən çətin müşkülləri çözməyə imkan verəcək. Təcrübəli, bilikli insanların məsləhətlərini qulaqardına vurmayın.



**Buğa** - Rəsmiyyətə qapılmayın. Stereotipləri yaşam tərzinə çevirməyin. Həyatınızı yaşayın. Yeni imkanlara doğru qorxu, xof və təlaş olmadan addımlayın. İmicin yenilənməsi şəxsiyyətinizin daha uğurlu izharına imkan verəcək.



**Əkizlər** - İşlərə yaradıcı yanaşma irəliləyişin başlıca şərtidir. Fəaliyyət prosesindəki müxtəlif eksperimentlər təbii təkan rolunu oynayacaq. Qəfil sonuclar və gözlənilməz nəticələr sizi çaşdırmasın, ruhdan salmasın.



**Xərçəng** - Hadisələrin intensiv, perspektivlərin yaxşı olduğu zamandır. Qarşınıza qoyduğunuz məqsədlərə çatmaq üçün nəzərdə tutduğunuzdan daha artıq qüvvə və resurs sərf etməyə hazırlaşın.



**Şir** - Ümumən pozitiv zamandır. İşdə və münasibətlərdə ən yaxşı keyfiyyətlərinizi, üstün məziyyətlərinizi nümayiş etdirin. Yaradıcılıqla məşğulsunuzsa, ilin ən əlverişli günlərindən biridir.



**Qız** - Maliyyə, karyera və işlə bağlı məsələlərdə gərginlik yaranacaq. Bələd olduğunuzu düşündüyünüz situasiyanın yeni təfərrüatları üzə çıxacaq. Risklərdən çəkinməyərək hüququnuzu müdafiə edin.



**Tərəzi** - Zamanla ayaqlaşın. Situasiyanın dinamikliyindən yararlanaraq fəal olun. Özünüzə qapılmayın, tərki-dünya insan təsiri bağışlamayın. Arzuladığınız əşyanı almağa, xəyallarınızdakı məqsədə çatmağa çalışın.



**Əqrəb** - Yeni, təcili işlərdən, fövqəladə tapşırıqlardan qorxmayın. İntensiv fəaliyyət tempi sizə problemlərin öhdəsindən daha tez gəlməyə imkan verəcək. Bütün çətinliklər müvəqqətidir. Ruhdan düşməyin.



**Oxatan** - Kənar təsirlər altına düşməyin. Aktual məsələlərin çözülməsində süstlük etməyin. Aktiv davranın ki, rəqiblər sizi üstələməsinlər. Günün ikinci yarısında yaxın gələcəklə bağlı strategiyanı müəyyənləşdirin.



**Oğlaq** - Günün ilk yarısı müsbət emosiyalar və hisslər bəxş edəcək. Tapşırıqlar və sifarişlərin öhdəsindən gəlmək üçün yaxşı əhval, nikbinlik xüsusi əhəmiyyət kəsb edir. Günün ikinci yarısında fantaziyanızı işə salın.



**Dolça** - Peşəkar fəaliyyət sahənizdə inkişaf, irəliləyiş üçün yaxşı imkanlar yaranıb. Şansları dəyərləndirin. Sayıq olun, ən müxtəlif variantları nəzərdən keçirin. Mübahisəli məqamlarda obyektiv olmağa çalışın.



**Balıqlar** - Risk və avantüralar üçün yaxşı gündür. Yaradıcılıqla məşğul olursunuzsa, yeni variantları sınaqdan keçirin. Daha qətiyyətli, iradəli olun. Məqsəd və istəkləriniz barədə açıq danışın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## Balıqçı rekorda imza atdı - 105 kiloqram...

**Balıqçı Con Harvi dünyada ən böyük siam karpını və ya nəhəng şirbit balığını ovlayıb.**

"Publika.az" xəbər verir ki, Con Harvinin ovladığı balığın çəkisi təxminən 105 kiloqram təşkil edib. Britaniyalı tutduğu balıq ilə dünya rekordunu yeniləyə bilib: buna qədər ovlanan ən böyük siam karpı indikindən 4,5 kiloqram yüngül olub.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.